*Azər ABDULLA*

# ÇAT



♦ *Roman**

Ərpimiş kitabı ayaqüstəcə vərəqləyəndə, bəzi səhifələr bir-birinə yapışdığından, bəzi sözlər pozulduğundan Azadın səbri tükəndi, gözünü kitabdan çəkmədən ayaqqabısını çıxartdı, çəkələk geymədən tələsik addımlayıb yataq otağında çarpayıya uzanaraq kitabı yenidən vərəqləyib "ə" hərfini, sonra "Əbülfəz" sözünü tapdı... Burdakı sözlər aydın oxunduğundan sevindi. Əbülfəz - Fəzlin atası; Fəzl: Alimlərə yaraşan yetkinlik, kamal; İman, comərdlik, ehsan, kərəm, elm, mərifət, üstünlük, hünər... "Görəsən, bu sözlərin hansısı daha dəqiq, düzgün - Əbülfəz sözünü ehtiva edir?.." Azad düşündü.

...Rəhmətliyin bacısı Azadla Rabili yas yerində görəndə gözlərindən yaş axa-axa:

– Bacısı ölmüşün sonuncu danışığı sizinlə oldu. Sizdən sonra bir kəlmə də danışmadı, - dedi. Dünən xəstəni yoluxanda Azad qabaqda, Rabilsə onun ardınca, ayaqlarının ucunda, səs salmadan Əbülfəz müəllimin yatdığı otağa girmişdilər. Üzü pəncərəyə baxan xəstənin gözləri yumuluydu. Arxadan bacısının pıçıltısı eşidildi:

– Bacısı ölmüş, gecə səhərəcən gözünü yummayıb.

Əbülfəz müəllim gözünü açsa da, çevrilib çarpayının yanında heykələ dönmüş adamlara baxmadı, yenidən gözlərini yumdu:

– Qardaş, gör kimlər gəlib, - bacısı dedi. Xəstə yenidən gözlərini açanda sanki canındakı yatmış ağrılar da oyandı, o ağrılar sifətində oynaşdı; onun incik və küskün baxışları pəncərəyə tuşlanmışdı. «Çevrilib bizə baxmağa halı yoxdu» - Azad düşündü. Arxadan Rabilin ehmalca səsi eşidildi:

– Əbülfəz müəllim, özünüzü necə hiss edirsiniz?

Xəstə sanki son gücünü toplayaraq başını düzəltdi, gələnləri gözdən keçirdi, yenə gözlərini qapadı. «Gör necə ağrıyır, o iradənin yiyəsi nə özünü toplayıb gülümsəyə bildi, nə də bizə salam verdi» - Azad düşündü. Rabil xəstənin bacısına yenə pıçıltıyla: – Bəlkə həkim çağıraq, dava-dərman, nə lazımdı? - dedi. «Guya pıçıltıyla danışır ki, Əbülfəz müəllimi narahat eləməsin. Əslində, Əbülfəz müəllimin eşitməsi üçün bunu deyir. Bax Rabil hər yerdə, hər məqamda özünü sevdirməyi, xal qazanmağı bacarır. Ancaq Rabil barəsində

---

* *Jurnal variantı*

yenə qəti, aydın bir fikrə gələ bilmirəm. Axı o, doğrudan da lazım gəlsə, istənilən dərmanı da tapıb gətirər, həkimi də; onun barəsində çox vaxt haqsız oluram... Əbülfəz müəllim sovetlər dövründə Politexnik adlanan institutda iyirmi il dərs deyib. İyirmi ildə ən azı bir qrup tələbəni götürəndə, hər qrupun uşağını iyirmi nəfərdən hesablayanda, iyirmi il ərzində onun qabağından, ən azı, ən azı, dörd yüz tələbə gəlib keçib. O vaxtdan neçə illər ötsə də, dörd yüz tələbənin içində təkcə Rabil onu unutmayıb» - Azad düşündü.

Politexnik institutunun dosenti Əbülfəz özünün düzəltdiyi on iki patron tutan tapançasıyla 1989-cu il avqustun otuz birində işlədiyi institutun iki kafedra müdirinə və prorektoruna atəş açmış, kafedra müdirinin biri yerindəcə o dünyalıq olmuşdu. Cəmiyyətin durğunluq dövründə qəfil partlayan bomba kimi əks-səda verən bu hadisə jurnalist Azadın diqqətini çəkmiş, Əbülfəz müəllimin doğulduğu kənd, bitirdiyi orta məktəb, institut illəri və son iyirmi ildə Politexnik institutundakı müəllimlik fəaliyyəti ilə bağlı xeyli məlumat toplamışdı. Əbülfəz müəllimin şəxsiyyəti Azadın diqqətini necə çəkmişdisə, həbsxanada yatdığı doqquz il ərzində respublikanın görkəmli aydınlarından imza toplayaraq Əbülfəz müəllimin bağışlanması haqqında bir-birini əvəz edən üç prezidentə müraciəti müxtəlif qəzetlərdə dərc etdirmişdi. Çap olunmuş müraciətlərin birini Rabil qəzetdə oxuyanda (o vaxt Yevlax Avtokalon Həmkarlar təşkilatının sədri vəzifəsində çalışırdı) tənbəllik etməyib qısa bir zamanda Yevlax, Bərdə, Gəncə, Tərtər, Mingəçevirə gedib eyni vaxtda avtomobil fakültəsində oxumuş tələbə yoldaşlarını taparaq Əbülfəz müəllimin bağışlanması ilə bağlı on nəfərin imzasından ibarət məktubu Azadın işlədiyi redaksiyaya göndərmişdi. Azad həmin məktubu göydəndüşmə tapıntı kimi qəzetdə çap etdirmişdi. Günlərin bir günü Rabil redaksiyaya gəlib Azadla tanış olmuşdu...

Əbülfəz müəllim başını çevirib bir an Azada baxdı, dərhal baxışlarını ondan yayındırıb Rabilə tuşladı, acı-acı gülümsünərək:

– Əziyyət çəkmisiniz. Allah köməyiniz olsun, - deyib gözlərini yumdu. Yenə Rabil dilləndi:

– Əbülfəz müəllim, nə əziyyət, borcumuzdu. Nə lazımdı, eliyək...

Xəstə gözlərini açdı, onun baxışları yenə Rabilə tuşlandı, sanki günahkarcasına:

– İkinizdən də razıyam... Allah sizdən razı olsun. Yaxşılığınızın əvəzini çıxa bilmədim. Elədiklərinizi halal eləyin... - deyib yenə gözünü yumdu. Azadı qəhər boğduğundan danışa bilmirdi. Danışarkən Əbülfəz müəllimin ancaq Rabilə baxması ona yer eləyirdi. «Onu daha çox istəyir, ona daha çox hörməti var. Axı, onun əziyyətini mən daha çox çəkmişəm, görəsən, mənə niyə baxmır?.. - düşündü Azad.

Rabil rayondan Bakıya gələndə iki dəfə Azadı da maşınına mindirib altı nömrəli islah əmək düşərgəsinə gedərək Əbülfəz müəllimlə görüşmüşdülər. Beş rayona gedib tələbə yoldaşlarını tapmaq, onların imzası ilə məktub yazıb redaksiyaya göndərmək də asan iş deyildi. Ancaq Azada görə, şəxsi maşını olması bir yana, böyük bir avtokalonun həmkarlar təşkilatı sədrinin xidməti maşınıyla beş rayona getməyin əziyyəti, noyabrın son günləri küləkli, yağışlı havada görkəmli bir şairin tapşırığından sonra Kalonlar İdarəsinin küçə qapısı ağzında iki gün soyuqdan sitiyə-sitiyə rəisin qəbul eləməsini saatlarla gözləyərkən özünü təhqir olunmuş hesab eləməsi, yaxud əfvlə bağlı imza toplayarkən onlarla vəzifəli və görkəmli adamların qəbuluna düşənə qədər və adam öldürmüş bir «caninin» haqlı olmasına onları inandırana qədər qarşılaşdığı psixoloji yaşantıların müqabilində Rabilin öz müəllliminə elədikləri dəryada bir damla idi. Soçidə dincələrkən Rabil kefinin saz vaxtı Əbülfəz

müəllimi xatırladığını, onun evinə zəng edib əhvalını soruşduğunu, yaxud, institutda oxuyanda Əbülfəz müəllimin uzun təbaşirdən xoşu gəldiyini eşidəndə, orta məktəbin birinə gedib (o məktəbdə Rabilin sevdiyi qız oxuyurdu) həmin təbaşirdən taparaq gətirib Əbülfəz müəllimə verdiyini, yaxud Əbülfəz müəllim bir tələbədən «paltonu harda, hansı dərziyə tikdirmisən?» soruşanda tələbənin: – Dərzi Rabilin tanışıdı, - dediyini,.. günlərin bir günü, Əbülfəz müəllimlə Politexnik institutundan çıxıb indiki Bakıxanov və Səməd Vurğun küçələrinin kəsişdiyi yerdə olan atelyeyəcən piyada getdiklərini, yol yoldaşı olduğundan bir-birinə daha çox isinişib simsar olduqlarını, elə o yol boyu gənc müəllimin ürək açıqlığı ilə sanki tay-tuşu ilə söhbət edir, dərdləşirmiş kimi, gözəl bir latış qızıyla dostluğundan danışdığını, həmin qızı evlərində qonaq saxladığını, hər dəfə çay-çörəkdən sonra yaşlı anasının o qızın stəkanını, xörək yediyi qab-qaşığı dönə-dönə yuyaraq suya çəkib salavatladığını, günlərin bir günü latış qızının bir qırıq kağıza yazıb masanın üstünə qoyduğu «ananın əziyyətinə dözə bilmədim» məktubunu oxuyub, Əbülfəz müəllimin taksiyə minib başılovlu aeroporta sürdürməsini, aeroporta çatanda təyyarənin yerdən qalxdığını Rabil Azada danışmışdı. Atelyedə palto sifarişi verəndən sonra Əbülfəz müəllimin: – Əziyyətdən keçib, "primerka" vaxtı da gələrsən, - dediyini, bir neçə gündən sonra atelyedə hazır paltonun əyninə qutu kimi olduğunu görəndə sevincdən Rabili bağrına basıb qucaqladığını xatırladı.

Əbülfəz müəllim gözünü açanda yenə də Rabilə baxdı, bu dəfə onun baxışlarında dəlilərə xas qəzəb, coşğunluq hiss olunurdu; o, amiranə tərzdə:

– Gedin, mənim sizə diqqət göstərməyə heyim yoxdu... Söhbət etməyə... Sizi dinləməyə, sizə baxmağa da gücüm çatmır... Allah sizi dostluqda bir-birinizdən ayırmasın...

– Əbülfəz müəllim, özünüzü bizdən ayırmayın, biz üçümüz...

Rabilin sözləri saxta göründümü, yoxsa sözünü kəsdiyinə görəmi, Əbülfəz müəllim əsəbiləşdi:

– Saxla, Rabil! Nə boynunu büküb durmusan, artistlik eləmə! Sənin şirin dilin var, mərdanəliyin var... Ancaq sən heç vaxt boyuna-buxununa, yaraşığına güvənmə; bu yaraşığı özün qazanmamısan, Allah verib sənə. Üzündə şeytan tükü var, şirin dilinlə çoxlarını... yoldan çıxara bilərsən... Unutma, inan, səni bir vaxt sorğuya çəkən olacaq!.. Son sözüm budur: dostluqda ehtiyatlı olun, çalışın aranıza çat düşməsin, aranızdakı etibar itməsin. Daha məni dinc buraxın, - deyib əliylə «çıxın gedin» işarəsi verib gözlərini yumdu, başını yenə pəncərəyə sarı çevirdi.

Azad doqquz il qabaq məhkəmə zalında uydurma, qurama-qondarma, saxta faktlar əsasında onu ittiham edən, adının qabağında «eşşək» ayaması ilə tanınan, sifətindən yağ daman zırpı müstəntiqin: – Prorektora atəş açıb qapıdan sivişəndə kaş qabağına mən çıxaydım, - deyəndə birinci gündən məhkəmə prosesinin düzgün aparılmadığını görən, ona neçə il hökm oxunacağının fərqinə varmadan, bayaqdan irəli sürülən ittihamlara əsəbi və coşğunluqla cavab verən, özünü tutarlı faktlarla müdafiə edən, uydurma faktları məntiqlə yalana çıxaran Əbülfəz müəllim kinayə və istezayla gülərək birdən səs tonunu endirib: – Hörmətsiz müstəntiq, o an qarşıma çıxsaydın, əlimdəki baltanı uf demədən sənin yoğun peysərinə endirərdim, - söylədiyi anı yadına saldı. Ancaq Əbülfəz müəllimin Rabilə xəbərdarlıqla "üzündə şeytan tükü var, çoxlarını, yoldan çıxara bilərsən" söyləməsi, sonra da «çalışın aranıza çat düşməsin» deməsi, dünən axşam çeşidbəçeşid mürəbbə və konfetli çay süfrəsi arxasında Rabilin həmişəkindən də ucadan coşğunluqla, ehtirasla danışması, sonra evlərinin qabağına düşüb Rabilin təzə aldığı

“Mersedes”inə mindiklərini, “Mersedes”in içində bir saata qədər siyasətdən tutmuş poeziyaya, iqtisadiyyatdan tutmuş qızlara, qadınlaracan elədikləri söhbəti, ayrılana yaxın Rabilin «istənilən qadını yoldan çıxarmaq olar» sözlərini xatırladı. Qonaq-qaranı o qədər də sevməyən Azadın evinə aydaildə bir dəfə qonaq gələndə həyat yoldaşının əl-ayağa düşməsi, çayı, başqa nemətləri gətirib süfrəyə düzərkən özünü itirib həyəcan keçirməsi, həyəcanının açıq-aşkar hiss olunması, Azada görə bu məqamda yoldaşının özünü itirib həddindən çox səxavətli göstərməsi, süfrəyə düzdüyü qab-qacağın, qaşığın, çəngəl-bıçağın ölçü-biçi baxımından yerli-yerində olub-olmamasına diqqət yetirməsi... abidənin qarşısına qoyulmuş səliqəli əklilə yaxınlaşaraq guya yerində olmayan bir gülü, çiçəyi tutub düzəldərək yerinə qoyan siyasi xadim, dövlət başçısı kimi Azadın qadını da səliqə-sahmanlı süfrəyə həyəcan içində yenidən yaxınlaşıb stəkanı, qənddanı, duzqabını, yaxud qaşığı, bıçağı götürüb yerini dəyişəndə... bərbərxanadan yenicə çıxıb birbaşa Azadgilə gəlmiş, səliqəylə qırxılmış saçı, par-par yanan şümal üzü, üst-başından ətrafa yayılan xoş ətir, bayaqdan gur-gur guruldayan Rabilin oynaq baxışları (bu evə gəlişi üçüncü dəfəydi) qadının süfrədə gəzişən yaraşıqlı əlinə tuşlanaraq yüz ilin simsarı, doğması kimi mehriban, həzin, məxmər səsiylə: – Narahat olmayın bajı, hər şey qaydasındadı, - deməsi (Azada görə Rabil əslində onun yoldaşının nə əllərinə baxmalı, nə də hərəkətinə reaksiya verməliydi), “Mersedes”in içindən gələn bahalı xoş ətir, radionun dalğalarını dəyişərkən eşidilən cürbəcür könül oxşayan musiqilər Azadın əhvalını yüksəltməkdənsə, onun qəlbinə ağırlıq çökdürdü. «Evimi nahaq yerə buna tanıtdım» - düşündü. Əslində, Azadın özü də qadınlar haqqında Rabil kimi düşünürdü. Başqa vaxt, başqa yerdə, başqa mühitdə Azad onunla razılaşar, sözünə qüvvət verərdi, ancaq o, susdu. Ağlından keçən «adam istəsə, qarşısına qoysa, istənilən adamı, lap özündən qat-qat güclünü də öldürə bilər» fikrini demək istədi. Ancaq indi bu sözü deməyin yersiz olduğunu, məqamında deyilmədiyinə açıq-aşkar qərəzli səslənəcəyinə, qorxutmaq, hədə-hərbə gəlmək kimi başa düşüləcəyinə görə gülüş doğuracağından ehtiyat etdi.

– Rabil, bir az düzəliş vermək istərdim. Bütün qadınları yox, əksər qadınları desəydin, daha dəqiq olardı. Mənim bibim var, kənddə yaşayır. Əri də müəllimdi. Mənim ağlıma gəlmir, kimsə onu aldadıb yoldan çıxarsın. Səni inandırım, dünya şöhrətli Müslüm Maqomayev də olsa... Bilirsən də, deyilənə görə rus qızları Müslümü görmək üçün leysan yağış tökəndə, qarlı-çovğunlu havada yağış borusuyla yeddinci qata dırmaşırmış. Hə, bibim ömründə bir atalar sözü bilməyib. Durub-oturub ərinnən danışır, ərinin dediklərini atalar sözü kimi işlədir, kişinin adını çəkəndə az qala dodağı çatlayır. İndi yaşlanıblar, yenə də ərinin adı dilindən düşmür. İmamverdi belə dedi... İmamverdi elə dedi...

– Bəlkə də sən düz deyirsən. Ancaq mühit məsələsi var da. Bibin... Mənim bibim olsun. Axı, kənd yerində o, nə görüb... İncimə e, qadası. Nə bahalı maşınlardan, nə restoranlardan, nə beşulduz otellərdən, Antalyadan, Mayamidən, nə bilim, nə «La Skaladan»... La Skala hardadı?

– İtaliyada...

– Nə Hollivuddan xəbəri var. Gördüyü kənddi də, elə deyil?..

– Elədi. Ancaq onun əri çox ağıllı, çox müdrik adamdı. İnanmıram Hollivudda onun kimi dərin düşüncəli adam olsun.

– Ay müəllim, qadına ancaq bəyəm ağıl, müdriklik lazımdı?..

– Adam bir qadını sonacan dərk edə bilmir. Ancaq sən bütün qadınların adından danışırsan. Sözündən belə çıxır...

Azad bir an duruxdu, ağlından bu fikirlər: «demək, sənin bacılarını, ananı, yoldaşını da yoldan çıxarmaq olar, inciməməsi üçün gərək öz bacımı, anamı, yoldaşımı da buraya əlavə edəm» - keçsə də bunları deməmədi, sadəcə:

– Demək yer üzündə bir təmiz qadın yoxdu? - söylədi. «Yox, mənimki bununla tutmaz. Elə burdan eşiyə çıxcaq, «Tələsirəm, bir nəfərlə görüşməliyəm» deyib ayrılmalı, bugündən biryolluq əlaqəni kəsməliyəm. Əbülfəz müəllimin yanına başqa vaxt tək gəlib, Rabildən söz salıb bəzi məlumatlar öyrənmək olar. Onu evə buraxmaq olarmı? Əbülfəz müəllim ömründə saxtalıq eləməz, düşündüyünü nə gizlədir, nə də yalan danışır. Çox güman ki, Əbülfəz müəllim onun barəsində tanıdığı qədər danışa bilər. Axı, Rabil Əbülfəz müəllimlə bir münasibətdə, başqalarıyla - deyək ki, bir yaltaqla, bir şərəfsizlə başqa münasibətdə ola bilər. Hər halda, Rabil mənim nə yaltaqlığımı görüb, nə də şərəfsizliyimi. Birdən Əbülfəz müəllim «Mən özümdən başqa heç kimə zamin dura bilmərəm. İnsan o qədər mürəkkəb və sonsuzdur, onun hansı vəziyyətdə, hansı situasiyada özünü necə aparacağını nəinki dostu, qardaşı, nəinki atası, anası, çox vaxt özü də bilmir. Bunu böyük Allahdan başqa heç bir ağıllı adam xarakterizə edə bilməz..."

Onlar evdən çıxıb Azad qabaqda, Rabil onun ardınca pilləkənlərlə enəndə Rabil «Azad müəllim, Əbülfəz müəllimdən gözüm su içmədi, yaxşı deyil» söylədi, Azad heç nə demədən başını buladı. Binanın giriş qapısından çıxcaq, Azad geri çevrilib:

– Yaxşı, sən get, mən burda əmioğlugilə dəyəcəm, - deyib ayrılmaq istəyəndə Rabil:

- Gəlin maşınla aparım da, - söylədi. Azad başıyla qarşıdakı beşmərtəbəli binanı göstərib:

- Budu, burada olurlar, - deyib getdi. Rabil onun ardınca:

- Müəllim, bəlkə sizi gözlüyüm?!» - dedi.

Azad geri çevrilib əllərini yelləyərək yox işarəsi verdi. Rabilin maşını işə saldığını eşitdi, bir neçə addım atandan sonra geri dönmək istədi. «Birdən arxamca baxar, binanın giriş qapılarından birinə girib ikinci mərtəbəyə qalxanda pəncərədən baxaram». Rabilin çıxıb getdiyinə əmin olandan sonra geri qayıtdı. "Ondan bu cür ayrılmağım ağlına gəlməzdi, təəccüblənəcək... Əbülfəz müəllimin vəziyyətinin mənə pis təsir etməsini də ağlına gətirə bilər. Doğrudanmı Əbülfəz müəllim onun etibarsız, namərd olmasını dolayı yolla mənə çatdırdı. Ana, bacı, qadını ona etibar etmək olmaz, demək istəyirdi. Bəlkə təzədən Əbülfəz müəllimin yanına qayıdım, nə demək istədiyini aydınlaşdırım. O nə haydadı, mən nə hayda. "Xoş gəldiniz" deyə bilməməsi bir yana, üzümüzə gülümsəməyə də gücü, iradəsi çatmadı.

Üç gündən sonra Rabilin telefon zənginə Azad cavab verəndə özünü xəstə kimi göstərmək istədi, ancaq ilk "eşidirəm" sözünü çox aydın, gümrah dediyindən bunun saxta görünəcəyini duyaraq "Əlimdə bir yazım var, sabah onu qəzetə verməliyəm" deyib onunla görüşməkdən imtina etmək istədi. Rabil «Əbülfəz müəllimgilə zəng eləmişdinizmi?» soruşanda Azad:

- İki gündü mən də xəstələnmişdim, yenicə özümə gəlmişəm, - dedi.

- Azad müəllim, siz Allah, bağışlayın, yenə də mən sizə acı xəbər verməli olacam. Əbülfəz müəllimin üçüdü...

Bir an sükut yarandı. Azadın səsi sanki dərin quyunun dibindən gəldi:

- Nə danışırsan?.. Mənə niyə xəbər verməyiblər?..

- Blokunuzun qabağına düşün, on dəyqiyə gəlim gedək...

Qəribəsi bu idi ki, bu acı xəbəri düşünmək əvəzinə, Azad bu şəhərdə sirdaşı, doğması, ürəyinin ən dərin qatında gizlətdiyi sirlərini deyə biləcəyi,

çətin vaxtlarda gənəşib ağıllı bir məsləhət eşidəcəyi, çıxış yolu olmasa da ürəyi sakitləşdirən, yüngülləşdirən bir toxtaqlıq, təskinlik verə biləcək, qırx ildən çox tanıdığı jurnalist dostu Namiqin ölüm xəbərini eşitdiyi anları xatırlayırdı. Bəlkə bunun səbəbi aralarındakı pərdəyə baxmayaraq, elə Əbülfəz müəllimin doğmalığı və dəyərli bir insan kimi Namiqə bənzərliyi idi? Soyuq noyabr günlərinin birində, gecə saat ikiyə işləmiş dostlarından biri telefonla zəng edib Namiqin öldüyünü xəbər verəndə sanki ağır bir yükün altından çıxa bilməyən, qovrulub için-için yanan, metronun, avtobusların işləmədiyi gecənin bu vaxtı Namiqgilin evinə gedib-getməməyini kəsdirə bilmədiyi çarəsiz, ümidsiz bir məqamda Rabilin telefonda kədərli səsini eşidəndə, bir neçə saniyə telefon susanda hannan-hana Azadın kəsik-kəsik, kəkələyə-kəkələyə «bilmirəm neynim... bilmirəm neynim» deyəndən sonra Rabilin hüznlü səslə «Azad müəllim, nə deyirsiz, gəlim gedək evlərinə» söyləməsindən sonra sanki məhz bunu gözləyən Azad «gəl, qadan alım, gəl» deyib dəstəyi yerə qoymuşdu. O gecə darısqal otağın ortasında parket döşəməyə sərilmiş xalça-döşəyin üstündəki cənazənin yanında saat dördün yarısınacan Rabil Azad müəllimlə yanaşı sakitcə oturub gözlədi. Namiqin qadını üzürxahlıq edib «Azad müəllim, durun gedin, bir damcı yatın, onsuz da sabah gələcəksiniz» deyəndə Azad Rabilə baxdı, bu lal, narahat, kədərli baxışların cavabını Rabil pıçıltıyla söylədi:

– Azad müəllim, necə istəyirsiniz, istəyirsiniz oturaq, istəyirsiniz gedək, - dedi. Bir azdan sonra ancaq Azadın eşidə biləcəyi pıçıltıyla:

– Deyirəm bəlkə ev yiyələrini narahat edirik? - söylədi. Rabilin son sözləri yorulmuş, əzilmiş, yuxusuz Azada getmək üçün bir bəhanə, bir səbəb oldu. Maşına minib yola düşəndən xeyli sonra Rabil «Azad müəllim, bir az yüngülləşdiz, eləmi?..»

## *VERİLMƏYƏN ŞANS*

…Rayondan öz maşınıyla Bakıya tək-tənha gələrkən Rabil yol boyu Muxtarla bağlı il yarım qabaq düşməncəsinə ayrıldıqları o gərgin saatları, dözülməz anları deyil, qəribə də olsa, onunla bağlı uzun illər yoldaşlıq elədikləri günlərdəki xoş məqamları,.. “Moskviç” maşınına səkkiz yüz kiloqram sarımsaq vurub yağışlı, çamurlu, palçıqlı torpaq yolla Volqoqrada gedərkən tez-tez yerə dəyib taqqıldayan tüstüboğanı məftillə çəkib bərkitmək üçün Muxtarın özünü qabağa verib maşının altına girməsini, başqa bir vaxt Taqanroq şəhərinin Qonaq Evində yer tapmayanda on-on iki yaşlı qız nəvəsiylə yaşayan qoca rus qadının birotaqlı mənzilinin dəhlizində gecələməli olanda, açılıb-yığılan çarpayını, qalın yorğanı ona verərək «mən paltarlı yataram» söyləyib quru taxta döşəmədə uzanıb odeyalı üstünə çəkməsini, başqa bir vaxtsa Saratov şəhərinin mərkəzi küçəsində tanış olduqları iki sarışın qızdan ən boylu-buxunlusu, yaraşıqlısı Muxtara meyil eləsə də, «yüz belə qız qurban olsun sənin belə vüqarlı duruşuna! Peşkəşdi, qardaş!» deməsini, çölün düzündə süfrə açıb çörək yeyəndə meyvənin gözəgəlimlisini ona sarı itələməsini, termosdan çayı birinci onun stəkanına süzməsini, kolbasanın son dilimi qalanda süfrədən əlini çəkməsini, süfrəni yığışdırmasını, qab-qacağı, stəkanları yuduğu anları xatırlayaraq Bayıl bazarına çatanda maşının sürətini azaldıb sağa çəkmək istədi, «bəlkə son görüşümüz olacaq, burda fərli meyvə olmaz» - düşünüb maşının sürətini artırdı. «Təzə bazar»ı tələsmədən dolaşaraq meyvələri gözdən keçirdi. «Görəsən hansı meyvə ona xeyirdi?

Deyilənə görə, karalyok…» İri, tünd narıncı, gözdoyuran karalyokun, nazik qabığının altında iri giləlləri bilinən Göyçay narının, zərif tükləri tökülmüş sığallı, şümal, parlaq Ordubad heyvasının hərəsindən iki kilo, bir kilo da ucaboy, incə belli gözəlləri xatırladan, saplağından aşağı getdikcə yoğunlaşan sapsarı armud aldı.

İki nömrəli, qapısı açıq palatanın ağzından boylanaraq, çarpayıdakı xəstələri ani gözdən keçirəndə birinin sağ yanağının göyümtül şar kimi üfürülüb şişdiyini, birinin alnından yuxarı ucu getdikcə nazilən yeni göyərib çıxmış cöngə buynuzuna oxşayan şişi, başqasında isə sallanıb bir gözünü örtmüş erkək hinduşka pipiyi kimi qırmızımtıl ət parçasını görəndə Rabilin bədəni ürpəşdi, «Axı mənim burda nə işim vardı» düşündü, tez xəstəxanadan çıxıb getmək istədi, palatadakı adamların baxışları sanki onu tutub saxladı, gözlərini xəstələrdən yayındıraraq onları yoluxmağa gələnlərə müraciətlə: «Dedilər Muxtar burda yatır?» söyləyəndə, üzü divara sarı xəstə bütün bədəniylə çevrilib qapıya doğru baxdı, dərhal Rabili tanıdı, «Ola bilməz… Bəlkə başqa Muxtarı axtarır» düşündü. Çaşdığından nə üzünü gizlədə bildi, nə də cəsarət edib Rabilə salam verə bildi. İki nömrəli palatadakı xəstələrin içində görkəmcə ən urvatlı, babat görünən, saçı tökülmüş, gözləri böyüyüb az qala bəbəklərindən düşəcək, boğazının yan tərəflərindən dərinin altına sanki dördkünc yastı buz parçası yerləşdirilmiş Muxtarı güclə tanıdı, palatı bürüyən gur səsiylə:

– Ə, il yarımda yəni elə dəyişmişəm ki, məni tanımadın, Muxtar?! – deyib ağır-ağır ona sarı yaxınlaşdı. Qabaq-qabağa dayandılar, ancaq Rabil onunla əl tutmadı, eləcə halını soruşdu, nə vaxtdan xəstəxanada yatdığını xəbər aldı, cavabı gözləmədən:

– Canın üçün, dünən eşitdim, İsrayıl dedi xəstələndiyini, rayonnan birbaşa bura gəldim… Həkimlər nə deyir? Haçan çıxırsan, Allah qoysa?.. – dedi.

Muxtar Rabilin verdiyi sualların heç birinə cavab vermir, utancaqmı, günahkarmı baxışlarını tez-tez ondan yayındırırdı. Rabil onun susduğunu görəndə «Bu dəyqə ağrın-zadın yoxdu ki?» soruşdu. Muxtar gülümsünərək gözlərini yumub başını azacıq tərpətməklə ağrımadığını bildirdi. Muxtarın boynunu döndərə bilməməsi Rabilə agah oldu.

– A Muxtar, bir cür çıxmasın, niyə dinmirsən, adamın başına hər şey gələ bilər, xəstəxanaya da düşər, avariyaya da, həbsxanaya da… – deyib qonşu çarpayıda yatan xəstənin yanında ayaqüstə dayanmış kişiyə baxıb sözünə davam elədi:

– Ağsu yenişində avariyaya düşdük. Üç-dörd il bundan qabaq, – deyib Muxtara sarı çevrilərək «Eləmi?» dedi, Muxtar yenə gözlərini qapayıb başıyla onun sözünü təsdiqlədi. Rabil dönüb həmin kişiyə baxaraq Muxtara işarəylə sözünə davam elədi:

– Qolu iki yerdən sınmışdı, mənim burnum bekaraca qanamışdı. Köməyə gələn adamlara məni göstərirdi ki, buna yardım eləyin, – deyib yenə Muxtara baxdı:

– İndi nə olub sənə, Allaha şükür, ayaqüstəsən… – dedi, əlindəki torbanı qabaqca ona sarı uzadaraq:

– Bunu hara qoyaq? – söyləyəndə Muxtar əlini yelləyib «lazım deyil» dedi, Rabil sanki dərin quyunun dibindən gələn sıxılıb əzilmiş, boğuq səs eşitdi, «Boğazımnan heç nə keçmir…»

– Allah köməyin olsun, indi iştahın çəkmir, bir azdan yeyərsən, sabah yeyərsən, – deyib selofan torbadan çıxardığı heyvanın birini onun burnuna yaxınlaşdırıb:

– Ordubad heyvasıdı, qoxusu da adama şəfa verir, – deyərək torbanı onun «tumbuçka»sının yanına qoyub dikəldi, ehmalca Muxtarın qolundan yapışıb «Gəl balkona çıxaq» dedi.

* * *

Rabil Bibiheybət məscidinin yanında maşını saxladı, çətinliklə cibindən çıxartdığı bir dəstə iri pulu eşələyərək:

– Ə, Muxtar, bir manıtın yoxdumu? – deyib zarafatla sözünə davam elədi:

– Muxtarın xırda pulla nə işi var, onunku yüzlüklərdi… hə, tapdım, – deyib manatlığı bir dəstə puldan ayırdı, maşından düşüb nəzir qutusuna yaxınlaşdı. Qayıdıb maşına əyləşərək mühərriki işə saldı, qazı basıb əyləci qəfildən buraxdı, asfalta sürtünüb əcaib səsin eşidilməsi ilə maşının yerindən götürülməsi birdən oldu, azca sürət götürəndən sonra əyləci sıxdı, maşın yerindəcə mismarlanıb qaldı.

– Hərdən cavanlıq da eləmək lazımdı, – dedi Rabil. Səhər tezdən profilaktoriyada təkərlərin balansını yoxladıb nizama saldırmış, qaykalarını çəkib bərkitdirmiş, yağını dəyişmiş, çənə ağzınacan benzin doldurmuşdu. Maşının saz durumundan ilhamlanan Rabil:

– Səhv elədik, gərək Şamaxı yolu gedəydik. Şamaxının mayı, Ağsunun dolamaları, meşə, hələ yarpaqları tərtəmiz ağaclar… Bəh-bəh, ölürəm də may ayı üçün… Muxtar onun sözünü kəsdi:

– İstəyirsən qayıdaq ordan gedək. Hara tələsirik ki?

– Yox e, qardaş, düşər-düşməzi olar, – deyib güzgüyə baxaraq Muxtara göz vurdu:

– Sən də ki, maşallah, nazirlik işçisinə oxşayırsan… Ancaq sən nahaq yerə bizim dəstəyə qoşulmadın. Dəyanətin elə bil qarnında ekiz uşaq var, mən onun yanında miniatür oğlana oxşuyuram. Antalyaya dincəlməyə gələnlər Umudun dorulduya-dorulduya danışdığını eşidəndə oranı qoyub qaçacaqlar. İçimizdə yaraşıqlı sənsən, sən də naz elədin… – dedi Rabil.

– Ay Rabil, Evin üstü açıq qalıb. Mən necə gedim? Səhv elədim, gərək qabaqca damını vurduraydım, sonra…

– Darıxma, Antalyadan qayıdıb Volqoqrada bir dəfə də reys eləsək, damı da vurarsan, hələ toyunu da eliyərsən,- dedi. Maşının sürətini bir az da artırdı, gur səsiylə:

– Portfelin içində qovluq var, onu bəri ver, – dedi. Şıxov enişiylə üzüaşağı enəndə Rabil açdığı qovluqda üç «paçka» beşlikdən ikisinin olmadığını görəndə əyləci necə sıxdısa, arxa təkərlərdən ətürpəşdirici səs çıxara-çıxara gələn «QAZ-24» markalı maşın ehmalca Rabilin “Moskviç”inə toxundu, sürücülərin ifadəsiylə deyilsə, bir-birini öpdü. Xoşbəxtlikdən maşınların heç birinə xətər toxunmadı. Üzürxahlıq edib “İyirmi dörd”ün sürücüsünü yola salandan sonra onsuz da sarsıldığından rəngi qaçmış, halı və səsi dəyişmiş Rabil təlaş içində:

– Ə, portfeli görüm, - söylədi. Muxtar həyəcan içində “Ə, nə olub, Rabil?” soruşsa da, Rabil cavab vermədən portfelin gözlərini dönə-dönə həyəcan içində eşələyib yoxladı.

– Bu nə deməkdi!? Paçkaların ikisi yoxdu! Min manat! - deyib iri gövdəsini çətinliklə çevirib arxaya ayaq altlarına baxmaq istədi.

– Ə, bir oralara bax, - söylədi. Muxtar yan tərəfdəki ayaqaltıya, sonra tələsik ayaqlarını təşviş içində gah o yana, gah bu yana çəkib öz ayaqaltısını gözdən keçirdi:

– Axı o, iynə deyil görünməsin, - dedi Rabil, qapını açıb yerə düşdü, tələsik yaxınlaşaraq, hövüllü arxa qapını açıb ayaqaltılarını gözdən keçirdi, əlini söykənəcəklə oturacağın bitişən yerinə soxub yoxladı.

– Allah sən saxla, - deyib, dikələrək ağır fiziki işdən tər tökmüş adamlar kimi dərindən nəfəs alıb köks ötürdü.

– Allah sən saxla, mən yuxumu görürəm, nədi, - söyləyib sükanın arxasına keçdi. Muxtar da arxadan başılovlu gəlib qabaqda oturdu.

– Ciblərinə bax, bəlkə…

– Nə danışırsan, nə bəlkə!.. Paçkanın dördü də burdaydı. Üç gün bunnan qabaq Zakirgilin evinə qoymuşdum…

Muxtar portfelin gözlərinə yenidən baxa-baxa başını qaldırmadan:

– Onda gəl qayıdaq Zakirgilə, - dedi, sanki bütün günah Muxtardaymış kimi, Rabil bir az da əsəbiləşərək səsinin lap yoğun yeriylə:

– Nə gic-gic danışırsan?!! Bu dəyqə partlayıb öləcəyimi bilsəm də, ora qayıda bilmərəm. Biz namusumuzu bir-birimizə etibar edirik… - söylədi, bir an araya sükut çökdü. Birinci sinifdən onuncu sinfə qədər birgə oxuduqlarını, beşinci sinifdə dostlaşdıqlarını, bu yaxınlığın, doğmalığın onların ailələrinə də sirayət elədiyini, sonra Politexnik institutunun Avtomobil şöbəsinə qəbul olunub oranı bitirdiklərini, institutda oxuduqları vaxt bir-birindən xəbərsiz ikisi də bir qızı sevdiklərini, məsələ açılanda bir-birinin xətrinə hər ikisi o gözəl qızdan əl çəkmələrini, evləndikdən sonra da ailəlikcə get-gəllərini, hətta Zakir evdə olmayanda onların qapısını ərklə açıb içəri girməsini, elə evlərindən Zakirin iş yerinə zəng edib «mən hamama girdim, tez çıx gəl, bir də bir yarım al gətir» deməsini, onun xanımından məhrəba alıb hamama girməsini, Rusiyaya səfərlər zamanı yeri, məqamı düşəndə bu barədə bir dəfə yox, bir neçə dəfə Muxtara danışmışdı.

Bir yol də sözgəlişi: «Muxtar, özün də bilirsən səni nə qədər istəyirəm, ancaq mənim bir dostum var bu dünyada, incimə bu sözümdən, o da Zakirdi» - söyləmişdi. Rabilin hirslənib gur səsini başına salacağından ehtiyat elədiyindən, qanının qara vaxtı, bəlkə lap qorxduğundan, Muxtar səsini alçaldıb:

– Qardaş, bir özünü ələ al, sakit ol, mən demirəm Zakir, ya onun arvadı… Evdi də, hər cür adam gəlib gedir. Hər halda Zakir bilməlidi...

Rabil onun sözünü yarımçıq kəsib əllərinin ikisini də qaldırdı, bərkdən sükana çırparaq:

– Bəsdi də! – qışqırdı. – Dedim ki, mümkün deyil...

Arxadan gələn maşınların gözübərəli sürücüləri bir neçə dəfə aramsız siqnallar verir, yolu ilan kimi əyri-üyrü gedən Rabilin “Moskviç”ini ötüb keçərkən əl-qolunu oynadır, Allah bilir hansı mərtəbəli söyüşlər yağdırırdı. Bir dəfə də qarşıdan sürətlə şütüyən “KamAZ»la baş-başa gələcəklərini görən Muxtar:

– Sağa! Sağa! - qışqıraraq əlini sükana atdı, xatadan, bəlkə də ölümdən sovuşduqlarını duyub dərindən köks ötürərək:

– İkimizi də öldürmüşdün… Özünü ələ al, qardaş. Fikirləşək görək neynirik… Sarsılıb bütün ümidini itrimiş Rabil öz-özünə danışırmış kimi:

– Mən batdım… Kimi inandıra bilərəm itirmişəm, - ümüdsiz, astadan dedi. İtiyini tapan adamlar kimi Muxtar nikbin səslə:

– Düz sür bizim kəndə, bir inəyimiz var, satarıq, - deyəndə Rabil yenə səsini qaldıraraq:

– Ə, sənin başın əvvəldən «pereboy» işləyirdi, indisə dayanıb, - söylədi.

Maşının sürətinin səksəndən gah altmışa, gah qırxa düşdüyünü görsə də, bir söz deyərsə, Rabilin yenə hirslənib bağıracağından ehtiyat elədiyindən, dodaqlarının hərdənbir tərpəndiyini, nəsə pıçıldadığını gözünün qırağıyla

görsə də, Muxtar səsini çıxarmadı. Hacıqabula çathaçatda birdən-birə maşının sürətinin artdığını gördü. Bir saat öncə söylədiyi inək məsələsini Rabil sanki indicə eşitmiş, elə bil ümid işartısı gördüyündən mülayim səslə:

– Birisigün biz uçmalıyıq, iki daşın arasında inəyinizi kimdi alan? - söylədi. Elə bil Rabil stresdən çıxıb ayılmışdı, boğuq, tutqun sifəti durulub özünə gəlmişdi, maşının sürət göstəricisi doxsan-yüz arası dəyişir, həmişə olduğu kimi o, maşını indi çox rahat və səliqəylə sürürdü. «İnəyinizə nə qədər verəllər?» soruşanda Muxtar bir qədər çaşdı. Sualın ciddiliyini, yoxsa dolamaq, ələ salmaq məqsədilə verildiyini anışdıra bilmədi. «Deyəsən sözlərində istehza, kinayə var» düşündü Muxtar.

– Lap yüz əlli, uzaqbaşı, iki yüz verdilər, bunnan yaramı sağalar?.. - dedi Rabil. Muxtar tələsik və həyəcanla:

– Şiferləri də satarıq, sonra alaram… - dedi Rabil, əlini yelləyib, “bu da eləsin lap yüz, yüz otuz… bunnan Fatıya tumanmı olar?” Araya yenə sükut çökdü. Ləkiyə yaxınlaşanda:

– Bəs neyləyək, Muxtar? - Rabil soruşdu. Onun səsindəki arxayınlığa Muxtar təəccübləndi.

– Deyirəm bəlkə… - söyləsə də sözünün dalısını gətirə bilmədi.

– Nə bəlkə? Niyə susdun? Özgə vaxt dil-dil ötürsən…

– Gedək bizim kəndə, dayıma yalvarım…

– Ə, oğraş dayın pul verəndi!? Görmür neçə aydı şiferləriniz yerdə qalıb, evinizin üstü krişasızdı?..

Rabil maşını yolun qırağına çəkib saxladı:

– Düş bir çay içəy, başımız açılsın, görəy neyniriy. Ləkidə bir dostum var. Deməsəm, sonra görüşəndə üyüdüb tökəcək bəs mənə niyə demədin…

Çayçıda barmaqları ilə gicgahlarını sığallayan Rabil “Başım partdıyır” deyib dilim-dilim doğranmış bir nəlbəki limonun yarıdan çoxunu ağzını marçıldada-marçıldada iştahla yedi. İki dilim öz stəkanına, birini də Muxtarınkına saldı, şəstlə Muxtarın gözünün içinə baxıb:

– Sənə nə olub, qanın mənimkindən bərk qaradı, - dedi, yenə cavab gözləmədən çayçı oğlanı çağırdı, oğlan tələsik onlara yaxınlaşanda Rabil:

– İbad buralara gəlmişdi? - soruşdu.

– Dünən gəlmişdi, dedi Sıktıkvara gedirəm, - oğlan sözünü qurtarmamış, Rabil əlini əlinə vurub Muxtara baxdı, hər yerdən ümidi üzülmüş adamlar kimi, başını bulayaraq barmağıyla göyə işarə edib:

– Gör e, qurban olduğum bütün qapıları üzümüzə bağlayıb, - söyləyərək armudu stəkanı götürüb bir qurtum içərək Muxtara:

– Çayını iç, gedək, ürəyim partlamasa yaxşıdı, - dedi.

Rabil maşına yaxınlaşıb sol qapını açdı, ancaq oturmadı, maşının sağ tərəfində dayanmış Muxtara baxıb:

– Belə vəziyyətdə adam evini də, maşınını da dəyər-dəyməzinə satmalı olur. Canın üçün, alan olsaydı... – deyərək əlini maşının damına vurub sözünə davam elədi:

– İki min, lap üç min aşağısına verərdim, - dedi. Muxtar - “Nə danışıram, hayıf deyil” - söyləyəndə Rabil:

– Neyniyim qağa, on nəfərin beşi inansa, beşi inanmayacaq, məni diri-diri yeyərlər, illah da ki Mırız Seyfi! - danışa-danışa bir əliylə şalvarının qabaq düymələrini aça-aça maşının qabağından hərlənib sağ qapının yanında dayanmış Muxtara açarı uzadaraq:

– Nə vaxtdandı yandırır, huşum başımda deyil, özümü rahatdayım, - söyləyib Muxtarın arxa tərəfinə keçdi. Muxtar azca meyillənib açarı qapıya

salanda çayxana tərəfdən tuşlanan projektorun gur işığında onun şalvarının arxa cibində bir «paçka» dördkünc beşlik aydınca sezildiyindən, Rabil əminliklə gözlənilmədən əlini atıb onu çıxartdı, qıfıla saldığı açarı fırlatmağa macal tapmamış Muxtar diksinərək ilan vurmuş adam kimi geri çevriləndə, Rabil əlini atıb onun pencəyinin döş cibindən ikinci paçkanı çıxartdı, ayaqüstə ölmüş Muxtarın ağzından «Qaytaracaydım…» sözü çıxanda Rabilin «Ananı …» deyib onun ayaqları dünyadan üzülmüş, buz bağlamış, ölü sifətinə gücü gəldikcə bircə sillə tutuzdurmağıyla arıq, şivərək olsa da, özündən dörd barmaq uca olan Muxtarın bir papaq kimi yüngülcə uçaraq xəndəyin qırağına yıxıldığını, oradansa iki dəfə yoğalanaraq alçaq boylu qamışlığa düşməyini, bu an onun sinəsindən bir göz qırpımında qaramtıl ilanabənzər nəyinsə su kimi axıb yoxa çıxdığını, Muxtarın «Vay, mama!» deyib pişik cəldliyi ilə ayağa durub xəndəkdən çıxmasını gördü. Rabil açarı qapıdan çıxarıb tələsik sükan tərəfə gəldi, qapını açdı, maşının o biri yanında özü də nə istədiyini bilməyən müəmmalı duruşlu Muxtara:

– Nə olub!? - dedi, sanki cəzasını çəkib qurtarmış adam kimi, ancaq günahkarcasına:

– Üstümdən ilan keçdi, - titrək səslə dedi Muxtar:

– Day sənnən kişi olmaz, - söyləyib Rabil maşınına oturaraq «oğraşın ürəyinnən hələ bir maşına oturmaq da keçir...» düşündü. Təkərlərin arxasından qumu, çınqılı geriyə püskürən maşın qəfil yerindən götürülüb uzaqlaşdı.

* * *

Balkonda ikisindən başqa adam olmasa da, boynunu əyərək bir sirr söyləyirmiş kimi, Rabil pıçıltıyla danışır, baxışlarını nə qədər yayındırmaq istəsə də, ani də olsa, gözləri tez-tez Muxtarın şüadan yanmış boğazına sataşır, dərisinin altında qabarmış yastı, dördkünc buz parçalarına bənzəyən görüntüdən eymənərək bədənində üşütmə hiss etsə də, canıyanan, simsar adam kimi gözlərini Muxtarın şüşəsi sınmış maşın farası kimi miskin, zavallı gözünə zilləyib:

– Həkimlər nə deyir? - Rabil soruşanda, Muxtar gülümsünərək balkona sarı uzanmış çinar budağının üstündəki tək-tük qalıb saralmış yarpaqlara işarəylə iki şəhadət barmağını bir-birinə sürtərək onlara oxşadığını, tezliklə bu dünyadan üzülüşəcəyini bildirdi.

– Bəsdi sən Allah, yekə oğlansan! - Rabil bu sözləri ucadan dedi, Muxtarın sıxılıb əzilmiş, boğuq səsini xatırlayıb yenə pıçıltıyla sözünə davam elədi, həm də söhbəti dəyişmək məqsədiylə:

– Mən ölüm, ürəyin nə istəyir, hinduşka, balıq kababı… Təmiz bal yeri bilirəm. Bəlkə pul lazımdı, Muxtar canı, nə qədər lazımdı… - sual dolu baxışlarıyla Muxtardan cavab gözlədi. Muxtar boğuq göy rəngli xəstəxana xalatının qolunu yuxarı eləyib saatına baxdı, qolu son dərəcə arıqlayıb nazikləşdiyi, qayışın dəmir ilgəyi sonuncu deşiyə keçirildiyi, saatı biləyinin altına çevrildiyi Rabilin gözündən yayınmadı. Muxtar saatını çətinliklə hərlədib biləyinin üstünə aşırdı, başını qaldıraraq ciyərindənmi, qarnının dərinliyindənmi gələn boğuq səslə gücənə-gücənə: «Bir saata gəlib apa-racaq-lar» dedi. Rabilin iri pərtləmə gözləri bir az da böyüdü. – Hara? - təəccüblə soruşdu. Muxtar “Kəndə” deyib azacıq gülümsünərək “Öl-mə-yə…” - əlavə elədi. Rabil əlini yelləyib, ucadan:

– Qurtar görəy, mən ölüm, - söyləyib yenə də alçaqdan danışmağa başladı:

– Muxtar, sən belə deyildin axı, adam gərək heç vaxt ümidini itirməsin, bizim aramızda heç vaxt gizli söhbət olmayıb, bir cür çıxmasın, bu günlərdə hansısa qəzetdə oxudum, Brazilyada ölmüş bir kişini aparıb qəbrə sallayanda dirilib ayağa qalxıb, adamlarla evinə qayıdıb. Allahın o qədər möcüzələri var! Sənə nə olub, maşallah, ayaqüstəsən, ağrımırsan, ağlın başında. Gedib o kəhrizin suyundan içərsən, təmiz hava, təbii yeməklər… - Rabil birnəfəsə bunları deyəndə nahaq yerə «bizim aramızda gizli söhbət olmayıb dedim, elə biləcək oğurladığı pullara rişxənd edirəm, ağır günündə, düşdüyü ağır vəziyyəti görüb sevinməyə gəldiyimi düşünəcək» fikrindən keçdi. Muxtar yavaşca onun qoluna toxundu, qabaqca barmağını öz boğazına yaxınlaşdırdı, sonra əlini qarnının üstünə qoyaraq “burda da var, yanıram…” dedi. Əlini dizinə toxunduraraq:

– Yerə qoyub kəh-ri-zin su-yun-dan do-yun-ca içib öləy-dim, - söylədi. Rabil onun qolundan tutub:

– Gəl gedəy içəri, əynin yalındı, soyuq dəyər. Dedim ölümü yadından çıxar. Cavan oğlansan, iradəylə mübarizə aparsan, hər şeyə qalib gələrsən. Şəhərin his-pası, boğanağı, cürbəcür xəstələri görüb pessimist olmusan, çətin o cənnətməkan kəndə çatıncadı, inşallah, hər şey yaxşı olacaq...

Muxtar azacıq dirəniş göstərib bir an yazıq-yazıq, yalvarışla Rabilin gözünə baxdı, bir anın içində ağlından keçən «Rabil, Allaha and olsun, yol boyu sənin keçirdiyin o gərgin, ağır anları, ölümə bərabər qəzaları görəndən sonra pulları qaytarmaq üçün yollar axtarırdım. Dayımdan borc almaq məsələsini deyəndə artıq mənim üçün işıq ucu görünürdü. Çox yox, üççə dəyqə mənə fürsət-şans versəydin… Sən maşında gözləyərdin, dayımgilə girib-çıxmağımla hər şeyi yoluna qoyacaqdım. Dayım olmasa da oğlunu, yaxud arvadını sənin maşınına mindirib rayon bankına gedəcəkdik, ora girib, özü də sənsiz, deyəcəkdim bunlar sənin yanında pul çıxartmağı istəmirlər. Beş-on manat verib paçkadakı beşlikləri əllilik-yüzlük olmasa da, iyirmi beşlik, yaxud bir paçka onluğa dəyişib özünə qaytaracaqdım. Mənim kimi haqq itirən dünyada tapılmaz. Hər dəfə Rusetdən qayıdanda bircə həftənin içində mənə üç yüz, dörd yüz, bəzən beş yüz rubl verirdin. Raykom katibinin də aylıq maaşı o qədər deyildi. İkimərtəbəli evimiz sənin sayəndə tikilmişdi. Zakirgildə sənnən açarı alıb maşında qalmış siqaretimi götürməyə gedəndə qovluqda pul olduğu ağlıma gəlmirdi. Qırmızı, dəridən olan yaraşıqlı, həm də mənə çox bahalı görünən qarnışiş dəri portfelini görəndə sanki mənə onun içinə baxmağı kimsə əmr elədi. Qovluğa tələsik baxanda, inan ki, o an portfelin sənin olduğunu unutmuşdum. Qovluqdakı pul paçkalarını görəndə, elə bildim portfel pulla doludu. Maşının qapısını bağlayanda sən yadıma düşdün, paçkaları qaytarıb yerinə qoymaq istədim. Şeytan yenə məni aldatdı, səni həddindən artıq pullu adam hesab elədiyimdən «əşşi, bunlar onun üçün semişka puludu» fikirləşdim. Boynuma alıram, Rusetdə mənə bəzən iyirmibeşlik, əllilik verib şey-şüy almağa göndərəndə də, mənə inandığından qalan qalığı qaytarmırdım. Mən köhnənin əclafı, yaramazıymışam. Mən namərdin, haqq itirənin andına inanmayacağından, and içmədən sadəcə deyirəm, pulları qaytarmaq istəyirdim. Nə sən, nə də Allahım, o iki-üç dəqiqəlik fürsəti - şansı mənə vermədiniz…» Bu sözləri deməyə gücü çatmayacağını, deyə bilsə də, Rabilin inamayacağını bildiyindən, yazıq-yızıq və günahkarcasına onun üzünə baxaraq, aciz görkəm alıb yalvarışla:

– Bacarsan, məni bağışla, - dedi. Rabil anası Zərişin ruhuna and içib (bu, Rabilin müqəddəs andıydı) Muxtarı inandırmaq istədi ki, xəndəkdən qışqıraraq durub gələndə onu ilan çalmış olsaydı, maşınına mindirib təcili xəstəxanaya

çatdırmaq ağlından keçmişdi. Ancaq bu xoşagəlməz əhvalatı yadına salıb qanını yenidən qaraltmamaq üçün ehmalca onu dəhlizə sarı çəkdi:

– Ay Muxtar, nə danışırsan, Nuhdan qalan işləri necə yadında saxlamısan... Soyuqdu, gedək palataya. Mənim ürəyimdə sənə qarşı pis şey olsaydı, yanına gələrdimmi? - bunları desə də, o vaxt yoğalanıb xəndəyə düşərkən sinəsinin üstündən keçən qaramtıl şeyin doğrudanmı ilan olduğunu soruşmaq istədi. Ancaq o hadisəni yenidən yada salmağı Muxtara qıymadı.

– Mətanətli ol, özündə güc tap, yaxşı ol, inşallah yenə səninlə səfərə çıxacağıq, - sözünə əlavə edərək sevgiylə altdan yuxarı Muxtara baxıb: "Evlənmisənmi?" - soruşdu. Muxtar əlinin işarəsiylə evlənmədiyini bildirdi. İki saylı palatanın qapısı yanında ayaq saxladı, bir əliylə xalatının yaxasını çəkib boğazını örtdü, «gərək qabaqcadan gizlədəydim, yəqin ki, bədəni ürpəşir» - fikrindən keçdiyindən əl verib ayrılmaq əvəzinə o biri əlini yuxarı qaldırıb yelləyərək xudahafizləşdi, boğuq səslə:

– Tezlikdə toyum olacaq, - deyib günahkar baxışlarını Rabilin gözündən yayındırmadı. Dərindən nəfəs alıb acı-acı gülümsünərək:

– İstəyən dəvətsiz gələcək, - söylədi. Rabil kövrəldi, onun üzünə baxmadan, son sözlərini eşitməzliyə vuraraq: "Di yaxşı" deyib onu qucaqlamaq istədi, ancaq bacarmadı, əlini ehmalca Muxtarın kürəyinə vuraraq:

– Allah amanında, mənniy bir şey lazım olsa, istədiyin vaxt yanında hazıram, - söyləyib ayrıldı, pilləkənləri enə-enə «Pulları cibindən çıxarandan sonra gərək onu vurub xəndəyə salmayaydım», qamışlıqda Muxtarın sinəsindən sürüşüb gedən ilanı, sonrasa anasının dediyi «pulları çıxart, ancaq dalaşıb-eləmə» son sözləri yenə xatırladı, günahkar kimi xəstəxananın binasından çıxdı.

* * *

Bədənə dar gələn köynək, palto kimi qatı qaranlıq adamı sıxırdı. Azad buralara yaxşı bələd olan Rabilin hənirinə onun arxasınca addımlayırdı.

– Ehtiyatlı ol, pilləkənlərdən düşürük, - dedi Rabil. Aşağıda qapı açılanda zəif işıq pilləkənləri azacıq işıqlandırdı, o, sözünə davam elədi:

– Respublikaya işıq verən Mingəçevir... Burda ataların «çıraq öz dibinə işıq salmaz» deyimi yada düşür...

Buz kimi soyuq, cansıxıcı vaqona bənzər yeməkxananın balaca pəncərəsindən baxanda uzaqda qaranlığın udduğu sular görünməsə də qarşı tərəfdə yanan işıqlardan Mingəçevir gölünün böyüklüyünün zəhmi Azadı basdı, pəncərədən düşən işıqda qumlu, torpaqlı qara, bozumtul qatı mazuta bənzər ləpənin ləngərlə yoğrularaq gəlib yeməkxananın altına keçəndə Azad geri çəkilərək kondisionerin pultuyla əlləşən Rabilə baxıb həyəcanla:

– Ə, qağa, bilirsən biz hardayıq, suların üstündə! - dedi. Rabil pultu masanın üstünə atıb etinasız, «işləmir» söylədi.

Öz qabındakı qızardılmış bütöv kütüm balığına yeyib yarısına çatmamış qaranlıq gecənin və Mingəçevir gölünün azmanlığının vahiməsi hələ də canından çıxmamış Azad göy-göyərtiyə iştahla girişən Rabilə baxanda keçən il yayda Pirşağı çimərliyində çimərkən nə qədər cəhd eləsə də heç olmasa suyun qurşağa çatan yerinəcən cürət edib irəliləmədiyi vaxtı xatırladı.

– A qağa, üzəmmədiyini bilirəm, boy vermiyən suyun üzündə nə qədər qala bilərsən?

Rabil başını yeməkdən qaldırmadan dərhal:

– Ştangistlərin qaldırdığı çəki daşı var e, on altı kiloluğu deyirəm, otuz iki kiloluq nə qədər dayanarsa, mən də o qədər, - bunları ciddi desə də, Azadı gülmək tutdu.

– Bəs nə ürəynən, hansı risknən burada oturmusan, heç olmasa gündüz olsaydı, - deyəndə Rabil yenə də başını qaldırmadan:

– Nə olub ki? - soruşdu. Azad əlini yeməkdən çəkib:

– Belinin qrijasından yatırdın e, sizə gəlmişdim, yadındamı? - Azad əlini salfet kağızıyla sildi, Rabil bir an gözünü qaldırıb Azada baxdı, balığın başını götürüb orasını-burasını gözdən keçirərək:

– Nar gətirmişdin mənə. Həyətimizdə çoxlu nar var, ancaq sənin gətirdiyin o iri, gözəl narlar heç vaxt yadımnan çıxmır, - dedi Azad.

– Hə, onlar Toğrul Nərimanbəyovun narlarındandı. Mən onu demirəm... Televizora baxırdıq, yadındamı?

Rabil yenə də başını yeməkdən qaldırmadan:

– Yox, yadımda deyil, - söylədi.

– Nə əcəb yadında deyil? İsrail kimi ölkədə… Toyuydu, adamlar oynadığı yerdə döşəmə çökdü... Altımız dərin göldü, iki dəmir dirəyin üstündəyik, bəlkə bunlar çürüyüb, bir himə bənddi… - Azad sözünü tamamlamamış Rabil əlini salfet kağızına uzadıb dik ayağa qalxdı.

Xeyli sükutdan sonra Rabil:

– Azad müəllim, - dedi, səsini alçaldaraq sözünə davam elədi:

– Biz tərəflərdə Seyid Mir Haşım olub, onun dədəsi yolunan gedirmiş, qabağına çıxan iki cavan oğlan ona sataşır. Rəhmətliy bunlara baş qoşmur. Cavanlar əl çəkmir, hırıldaşıb kişini dolamaq istəyirlər. Uçan göyərçinləri göstərib:

– Kəramətin varsa, onların birini endir aşağı tutub kabab eliyək, sənin cəddinin sağlığına da yüz-yüz vuraq… - Seyid incimiş halda, onların üzünə baxmadan ağır-ağır:

– A bala, Allah günahınızdan keçsin, - söyləyir. Bir an susduqdan sonra sözünə davam edir:

– Cavanlığınıza bağışlayıram, - deyib azca aralıda tarlanın qırağındakı iri qayanı göstərib:

– Gedin onun üstündə oturun, göyərçinlər dövrə vurub qayıdanda mənimlə belə şit zarafat edəcəyinizə peşman olacaqsınız. Gənclər itələşə-itələşə qaçıb qayanın üstündə oturmağıyla uzaqda görünən tək çinarın başından dövrə vurub qayıdan göyərçinlərə baxan cavanların biri:

– Seyid, elə elə, ikisi düşsün, - deyir, o biri cavansa:

– Yox, yox üçü düşsün, hərəmizə bir… Göyərçinlər ucadan, oğlanların başı üstündən uçanda o boyda qaya ortadan necə çatlayıb aralanırsa, oğlanların hərəsi bir tərəfdə qalır, heyrətdən, qorxudan uşaqlar uzun müddət yerlərindən tərpənə bilmir…

– Rabil bəy, bilmirəm bu həqiqətdi, şişirtmədi, ya uydurmadı?.. Biz tərəflərdə - Zəngəzur zonasında, qabaqlar Zəngilan da Zəngəzurun ərazisi olub, - rəhmətlik Seyid Həsənağa yaşayırdı. Yeri gəlmişkən, mənim beş-altı yaşım olanda bizim yaylaq yerinə gəlmişdi. İndiki kimi gözümün qabağındadı, çal buxara papaqlı, yaraşıqlı kəhər atın belindəydi, bilmirəm seyid nəslindən olduğumuza, yoxsa atam kolxoz sədri olduğuna görəmi, bizim qapıda atdan düşdü. Xəbər tutan kənd adamı tökülüşüb gəlmişdi. Atam o qədər yox, anam çox inanclı, imanlıydı. Anamın təkidiylə ağzımı açdım, Seyid Həsənağa ağzıma tüpürdü. Elə bilirdim onun tüpürcəyi nəsə şirin, dadlı olmalıdı. Üz-gözümü bürüşdürüb yerə tüpürmək istəyəndə anam həyəcanla «Olmaz! Olmaz! Qadan alım» deyərək tez evimizə aparıb qonşu aran kəndindən bizə səvərədə - səbətcikdə

pay gəlmiş və biz tərəfdə təbərrik sayılan dəymiş, şipşirin alagöy incirdən birini mənə verdi. Fürsətdən istifadə edib üzümü turşudaraq birini də alıb yedim. Nə demək istəyirəm. O vaxtlar danışırdılar, Seyid Həsənağanı müharibəyə aparmaq istəyəndə, nə qədər eləsələr də, mindiyi qatar yerindən tərpənməyib. Bilirsən belə rəvayətlərə niyə şübhələnirəm? İllər ötdü, gəlib Bakıda universitetdə oxuyanda Ətağanı - Mir Möhsüm ağanı da istənilməyən, arzu edilməyən harasa aparmaq istəyəndə, mindiyi maşının yerindən tərpənmədiyini eşitdim… Ancaq bir məsələ var… Belə şeylərə şəxsən mən şübhə ilə baxıram, nə inanıram, nə də inkar edirəm, elə əstəğfürullah, Allahın özünə də. Bilirsən də mənim kimilərə oqnostik deyirlər. Rabil bəy, sən Allaha inanırsanmı?

– Azad müəllim, o nə sözdü, Allaha qurban olum!

– İncimə, sənin kimi adamlara, axı necə deyim, xətrinə dəyməsin…

– Necə istəyirsiniz deyin, incimərəm.

– Qurana inanırsan? Onun Allah kəlamı olduğuna inanırsanmı?

Xeyli sükutdan sonra Rabil:

– Əlbəttə inanıram…

– Mən istəyirdim belə cavab verəsən. Mənim balaca oğlum, bir dəfə məni necə susdurdu. Adi məntiqlə. Dedi ata, namaz qılıb Həccə gedən, nə bilim, zəkat verib özünü müsəlman sayan yüzlərlə adam nə müsəlmandı, nə də Allaha inanandı. Deyir, adicə icra başçısının, yaxud şirkət prezidentinin qabağında ştık kimi dayanan, bir sözünü iki eləməyən… lap elə Respublika Prezidentinin qarşısında müticəsinə dayanıb, hər sözünə "baş üstə" deyən məmurlar Allahın, Quranın dediklərini yerinə yetirmirlər. Bax, deyirsən Allaha inanıram, ancaq nə namaz qılırsan, nə Həccə gedirsən… zina eliyirsən, araq içirsən, bir meşox pul arzulayırsan, televizorda veriliş aparan o gözəl xanıma villa tikdirmək ürəyindən keçir…

Azad danışa-danışa Rabilgilin kənd qəbiristanlığındakı sığallı üzlüklü, fiqurlu daşlardan olan mühəccəri və hasarın içərisində su qırağında bir-birinin həvəsinə pərvazlanıb ucalan qələmə ağaclarını xatırladan qara mərmərdən olan üç başdaşı və sinə daşını, bir tərəfdə oturmaq üçün parlaq xınayı boyaya çəkilmiş sığallı "reykalar"dan düzəldilmiş skamya, divarboyu əkilmiş calaq qızılgül kolları gəlib gözünün qabağında durdu. "Bax, dəbdəbə nəyə lazımdı, İslama görə bunlar qəbulolunmazdı, onların halal zəhmətlə başa gəlməsinə inanmıram" demək istədi. Arvadının dediyi «qocalmısan, yenə də harda nəyi deyərlər, nəyi deməzləri bacarmırsan» sözləri, bir də Rabilin təkcə öz gorgahları üçün deyil, məzarlığa gələn bütün insanların istifadəsi üçün düzətdirdiyi iyirmi tonluq su çənini, məzarlıqdan azca aralıda tikdirdiyi tualeti xatırlayıb bir an susdu. Rabil ağzını açıb danışmaq istəyəndə:

– Qoy fikrimi tamamlayım, - dedi Azad.

– Sən, sənin kimi milyonlarla Allaha inandığını deyən adamlar Allahın buyurduqlarına niyə əməl eləmirlər? Bir nəfər deyir on yeddi dəfə Həccə getmişəm. Deməli, bu adam hər il günahlar içində üzür, öz aləmində ziyarət vaxtı gedib «təmizlənib» qayıdır. Allahla gizlənpaç oynamaqmı olar?..

## *AZADIN İLK UĞURSUZ SEVGİSİ*

– Bilirsən... – deyib, Azad bir an susdu. Bu bir an, zil qaranlıq gecədə qarşı dagın ortasını sürətlə yarıb keçən projektordan axan gur işıq zolağı təkin onun yaddaşındakı yaylaqla bağlı həm kədərli, kövrək, həm də maraqlı, unudulmaz xatirələri işıqlandırdı.

...Azad yeddinci sinfi bitirib yenicə yay tətilinə buraxılanda İrəvandan ata-anasıyla onların kəndinə gəlmiş gözəl erməni qızına ilk, həm də uğursuz məhəbbətindən danışmaq ürəyindən keçdi. O zamandan əlli üç il ötməsinə baxmayaraq o təmiz bakirə sevgiylə bağlı ürəyinin başındakı yanıq yerinin sızıltısını, acı göynərtisini yenə duydu. Uğursuz məhəbbət deyiləndə, Azadla yaşıd olan gözəl erməni qızı arasında erməncə "barev tses" (salam olsun sizə) sözündən başqa heç bir münasibət yox idi.

...Yazın ortalarında bir səhər günəş uca dağın arxasından yenicə doğub yaşıllığa bürünmüş kəndi öz nuruna boyayanda yuxudan həmişəki vaxtdan gec durmuş Azad üz-gözünü yumadan, çay-çörəyini yeyib-içmədən gəlib bağçalarının yanından keçən el yolunun qırağındakı nəhəng cəviz ağacının altında yerəbitili qayanın üstündə oturduğu zaman uzaqdan əlində su vedrəsi, sarı donlu bir qızın aşağıdan yuxarı yavaş-yavaş qalxdığını gördü. Çiyninəcən çılpaq, dizindən yuxara sarı donlu, sarışın qızın yaxınlaşıb uzun kirpikləri, iri ala gözləri seçilənəcən Azad gözlərini ondan çəkmədi. Tanımadığı bu gözəl qızın ona baxdığını görəndə Azad utanıb baxışlarını ondan yayındırdı. Bir də qız onun yanından ötəötdə Azad başını qaldırıb ani olaraq ona baxanda nazik qaşlı, xurmayı, zərif telli qızın mehribancasına gülümsədiyini gördü. Kənd uşaqlarına qoşulmayan, tərbiyəli ev uşağı kimi tanınan Azad qıpqırmızı qızardı, səhər-səhər günəş kəndi öz nuruna boyayıb isitdiyi kimi, ilk dəfə gördüyü o gözəl qızın doğma, mehriban gülümsəməyi də Azadın qəlbini, bütün bədənini eləcə işıqlandırıb qızdırdı, ürəyi tez-tez döyünməyə başladı. Qız beş-altı addım aralanandan sonra Azad başını qaldırıb səksəkə içində onun arxasınca baxanda iki nəfər kənd adamının danışa-danışa üzüaşağı gəldiyini gördü, üzünün alışıb-yandığını həmin adamların görüb şübhələnəcəyindən qorxduğundan, tez yerindən qalxıb evlərinə sarı əkildi. Adamların ötüb keçdiyini uzaqdan görsə də, daha cəvizin dibinə qayıtmadı. Azada görə o qız on beş - iyirmi dəqiqədən, uzaqbaşı, yarım saatdan sonra kəndin ortasındakı bulaqdan vedrəsini doldurub qayıtmalıydı. Azada görə bu qız onun cəvizin altındakı qayanın üstündə bu qədər oturduğunu görsəydi, onu boş-bekar, avara küçə uşağı hesab edə bilər, yaxud o qızı gözlədiyini dərhal başa düşərdi. O, tələsik gəlib el yoluyla bağçalarının arasında çəpər əvəzi olan hündür, qalın böyürtkən kolunun arxasında özünə yer elədi, yol yaxşı görünmədiyindən lobya civəsindən-ləkindən bir maşağacı çıxarıb böyürtkən kolunun yarpaqlarını tələsik bir-bir qoparıb deşik açdı, ancaq nəzərdə tutduğu vaxtdan çox-çox zaman ötdü, "yəqin çeşmədə növbədi" düşündü. Bu arada anası bir neçə dəfə onu haylasa da, Azad səsini çıxarmadı.

Böyürtkən kolunda açdığı deşikdən yolun ancaq üç-dörd addımlığı görünürdü. O üç-dörd addımlıq məsafəni keçərkən, kənd qızlarından fərqli olaraq tanımadığı o qızın su ilə dolu vedrəni çiynində yox, əlində sallada-sallada apardığını Azad ani olaraq görə bildi. Elə həmin gün Azad kənddə yeganə dostu Qambayı axtarıb tapdı, o erməni qızının on gün bundan qabaq İrəvandan gəldiyini, ata-anasıyla kəndin aşağı qurtaracağında qaldığını, əsl adı Donara olsa da, Dora çağırıldığını, atasının kənddən iki kilometr aralıda yerləşən "Geoloji Partiya"nın (Qambayın qardaşı da həmin partiyada işləyirdi) hündür, iri-iri atlarına baxdığını, hətta bir dəfə həmin qızın anasıyla birgə Qambaygilin həyətinə gəlib tut yediklərini, zərif barmaqlarıyla tutu ehtiyatla saplağından götürüb dodaqlarına toxundurmadan ağappaq dişlərinin arasına qoyub ehmalca saplağını çəkdiyini, yenə də tut yeməyə gələcəklərini öyrəndi. Azad öz həyətlərində tut ağacı olmadığına görə yanıb-töküldü, bağçalarında nəhəng-nəhəng tut ağacları olan yeganə dostu Qambaya ılk dəfə paxıllığı tutdu.

Səhərisi gün Azad lap tezdənnən gəlib cəvizin dibindəki daşın üstündə oturub saatlarla gözləsə də, qızı görə bilmədi. Azad anasından ermənicən salam sözünün cürbəcür deyiliş formasını öyrəndi. Anası ona başa saldı ki, adam öz tay-tuşuna, doğmalarına sadəcə "barev", özündən böyüklərə, yad adamlarasa ehtiram əlaməti olaraq, bir az da nəzakətli, mədəni səslənsin deyə "barev tsez" deməlidi. Həmin gün Azad günün müxtəlif vaxtlarında Doragilin qaldığı evin yanından küçəaşağı, küçəyuxarı dönə-dönə ötərkən gözünün qırağıyla onların həyətinə baxsa da, onu görə bilmədi. Heç yanda qərar tuta bilmədiyindən, bağçalarıyla el yolunun arasında çəpər-hasar əvəzi olan böyürtkən kolunun yanına gəlib dünən açdığı deşiyi bir az da genəltdi, indi deşikdən baxanda yolun on addımlığa qədər yeri görünürdü.

Üçüncü gün də Azad hələ gün çıxmamış gəlib cəvizin altındakı daşın üstündə oturdu. Ancaq onun oturmağı çox çəkmədi, kolxoz işinə gedən iki-bir, üç-bir adamlar danışa-danışa ordan ötəndə istər-istəməz Azada baxırdılar, uzaq qohumlarından biri:

– Qadan alım, səhər-səhər burda niyə oturmusan? - deyəndən sonra Azad daha orda otura bilmədi, adamların gəlib-getdiyi vaxt o, evləriylə cəviz ağacı arasındakı iyirmi-iyirmi beş addımlıq yolu ən azı on kərə həyəcan və nigarançılıqla gah o başa, gah bu başa gedib-gəldi, Allaha yalvardı ki, işə gedənlərin ayağı kəsilənəcən Dora gəlib küçədən keçməsin.

Günəş dağın başından bir qulac boyda qalxanda sarı donlu qız yolun aşağısında göründü; onun isti havası uzaqdan Azadı vurdu, o istiliyi təkcə bədənində deyil, gözlərində də duydu, balaca ürəyi tez-tez döyünməyə başladı, gizlənmək artıq gec idi. Dora onu gördüyündən o, daşa mismarlanmış kimi yerindən tərpənəmmədi. Başını aşağı salıb əlindəki, hələ canından suyu çəkilməmiş çubuğun baş tərəfinə yaxın sığallı, şümal yerində dünən bıçaqla səliqəylə, sevgiylə qabığını oyub "DORA" yazdığı ağacın aşağısında o vaxta qədər naxış açmağa başladı ki, qız onun yanına çathaçatda ağacda oyduğu qızın adını əliylə örtdü, başını qaldırıb həyəcan və çaşqınlıq içində "Barev" dedi; bu gözəl, zərif şəhərli qızını tanımadan birdən-birə ona "barev" deməsini kobudluq saydığından səhvini düzəltmək üçün tələsik "barev tsez" söylədi. Hələ uzaqdan gülümsəyərək yaxınlaşan Dorasa sadəcə "barev" deyib Azadın yanından yüngül meh kimi otüb keçdi. Üz-gözü od tutub yanan Azad xoşbəxtcəsinə bir an onun arxasınca baxanda Doranın ağappaq, yupyumru çılpaq çiyinlərini gördü. Hansısa kolun, çəpərin, hansısa ağacın arxasından qonşulardan birinin, yaxud lap elə anasının ona tuşlanmış gözlərini duyduğundan Doranın arxasınca doyunca baxa bilmədi. Tərəddüd içində bəlkə yüz yol qəlbində "onun qayıtmasını gözlüyüm, gözləmiyim" sualını özünə verə-verə açdığı naxışları sanki gözünün qabağından getməyən qızın ağappaq, yupyumru çiynində cızırmış kimi, bıçağın iti ucunu indi qorxa-qorxa, ehtiyatla yaş çubuğun qabığına toxundururdu.

Dora azacıq əyilib su ilə dolu vedrəni Azaddan bir addım aralı yerə qoyanda, Azad qəfildən ayağa qalxdı, aşağı əyilmiş Doranın sarı donunun yaxası sallandığından Azadın gözləri bir an onun yenicə çırtlamış qızılgül qönçəsinə bənzər balaca məməsinə sataşdı, bir anın içində sanki təpəsindən vuran ildırım ayağından yerə ötürüldü. Günahkar bir iş tutmuş adam kimi çaşaraq yenidən daşın üstünə çökdü. Gülümsəyən Dora heyranlıqla Azadın əlindəki cürbəcür naxışlarla bəzənmiş çubuqdan gözünü çəkmədən sevinclə:

– Hinçkan siruna! (necə gözəldi!) - dedi, - sən rəssamsan ki, - söyləyəndə gözü çubuğun üstündəki öz adına sataşdı, təəccüblə:

– Bu mənim adımdı ki...- deyib bir az da böyümüş gözlərini Azadın gözünə zilləyərək:

– Adımı hardan bilirsən? - maraqla soruşdu.

Al yanaqları od tutub yanan Azad ermənicə deyilən bu sözlərdən ancaq "sirun" sözünün "gözəl" demək olduğunu bilirdi. Hələ lap balaca yaşlarında anasıyla rayon mərkəzinə gedəndə, onlarla qarşılaşan tanış erməni qadınları, yaxud xeyir, şər mərasimlərində, bayram günlərində onların evinə doğma adam kimi gələn dostlarının qadını Baytsar arvad Azadı görəndə heyranlıqla: – Axçi, sran açkerin nayi, hinçkan siruna eee! Vonts vor hayı yerexana... - (Ay qız, bunun gözlərinə bax eee, necə də gözəldi!.. Elə bil erməni uşağıdı) deyəndə, anası balasının nəzərlənəcəyindən qorxduğundan gülə-gülə dodağının altında pıçıltıyla "gözünə mil batsın" dediyini Azad dəfələrlə eşitmişdi... İki gündən bəri üstündə əlləşdiyi bəzəkli ağacın Doranın xoşuna gəldiyini onun işıqlı gözlərindən, dodağından bal kimi axan gülümsəməyindən görəndə, çubuğu ona uzadaraq:

–Sizin olsun, - dedi. Dora çubuğu sevinə-sevinə, nəzakətlə alıb yenidən heyranlıqla gözdən keçirdi:

– Mersi, - dedi. - Bunu, özümlə Yerevana aparıb, yadigar saxlayacam, - söylədi. Donara danışırdı, Azad onun dediklərini anlamasa da, onu duyurdu. Çiçəklər günəşi, otlar, ağaclar suyu, dəniz Ay işığını duyan kimi...

Donaragilin evinin yanından iki qadın ucadan mübahisə edə-edə aşağıdan yuxarı qalxırdılar. Dora geri çəkilib su vedrəsini götürdü, Azadla gülə-gülə sağollaşıb getdi. Vedrənin ağırlığından yanıüstə əyilərək güclə yeridikcə uzaqlaşan Doranın ardınca baxan Azad ürəyində qadınları söydü, "onlar olmasaydı, vedrəni özüm götürüb apardım" düşündü. Yerindən götürülüb bağçalarının qırağındakı böyürtkən kolunun yanına gəldi, açdığı deşikdən baxanda Doranın vedrəni yerə qoyub dincəldiyini gördü. O, naxışlarla bəzədilmiş ağacı gözdən keçirib xəfifcə gülümsünürdü. Yolun qırağında böyürtkən koluna yaxın dayandığından Azad onun yandan, ancaq qurşaqdan yuxarısını görə bilir, balaca burun pərəsinin qalxıb endiyini hiss edirdi. Vedrənin ağırlığından çiyinləri ağrıyan Dora sinəsini azaçıq qabağa verib gərnəşəndə, Azad onun qönçə məməsinin nazik, sarı donunu dikəltdiyini gördü. O, Doranın qəfildən yana çevriləndə gözlərinin böyürtkən kolunun deşiyinə sataşacağından, ona sırtıqcasına baxdığını, yaxud onu güddüyünü görəndə inciyib küsəcəyindən, onunla qarşılaşanda gülümsəmədən ona bağışladığı naxışlı çubuğu üstünə ataraq salamlaşmadan üzünü yana çevirib yanından ötüb keçəcəyindən qorxub bir an geri çəkildi. Ancaq o, dözməyib yenidən baxanda qadınların üzüyuxarı qalxdığını, vedrənin ağırlığından bir çiyni yana əyilmiş Doranınsa üzüaşağı getdiyini gördü...

Həyətlərdə olduğu kimi, kolxozun kövşənindəki gilaslar da çoxdan yığılıb sovulmuşdu. Hər il olduğu kimi Azadgilin bağçasındakı nəhəng ağacın əlçatmaz bir budağı çitəmə, qıpqırmızı gilasla doluydu. Ermənilərin gilasdan ötrü, lap qurdlanmış gilasdan yana sinoy getdiklərini Azad anasından dəfələrlə eşitmişdi. Anasının dediyinə görə, kolxoz kövşənini əli dəhrəli, tüfəngli qoruqçuların qoruduğuna məhəl qoymadan yoldan maşınla keçən ermənilər, tamahları qorxularına güc gəldiyindən, yük maşınını saxlayıb banına qalxaraq yolun qırağında tozlu, qurdlanmış, ityeməz gilasın budaqlarını dəhrəylə amansızcasına doğrayıb aparmışlar. Qambay, Doranın anasıyla onların bağçalarında tut yediklərini deyəndə, öz bağçalarındakı qanlı ağac adlanan alma gilasın əlçatmaz budağında çıraq kimi yanan çitəmə gilas Azadın gözünün qabağında canlandı. Fikrində o budağı gah dəhrəylə kəsib yerə saldı, ancaq taqqıltıya qonşuların, yaxud anasının eşiyə çıxdığını görəndə, o budağı

mişarla səssizcə kəsməyə başladı, Dorayla onun anasını kəndin ən dadlı gilasına qonaq elədi. O budaqdakı gilası heç vaxt yeyə bilmədiklərinə görə qabaqlar Azad "o budağın bizə nə xeyri var, kəsək" - deyəndə, anası:

– Elə gilası kəsmək olarmı, günahdı... O da sərçələrin, qəcələlərin payıdı... - demişdi. Həmin budaqdan bir uşağın qayanın ystünə düşdüyünü, bir qıçının sındığını, başının yarıldığını, qanının qayaya dağıldığını da anasından eşitmişdi. Bu əhvalatla bağlı Azadın qəlbində bir xof yaransa da, üç gündən bəri o budaqdakı gilasları yığmaq, yaxud şaxlayıb Doraya vermək fikrini başından çıxara bilmirdi. Bəzəkli çubuğu Doraya verdiyi günün axşam çağı ürəklənib gilas ağacına dırmaşdı, gövdədən dümdüz uzanmış o budağa qarnıüstə sərilib bir qolboyu qarın-qarın süründü, gözləri qaralıb bədəni əsdiyindən geri çəkildi. Səhərisi çaylaq yerində söyüd ağacından kəsib hazırladığı uzun qıraçını - qarmağı gətirib gilas ağacına yenidən çıxdı, qabaqca yoğun, canlı budağı bütövlükdə əymək istədi, gücü çatmadığından bu dəfə qarmağı budağın ucuna yaxın nazik yerinə ilişdirib asanlıqla dartıb sındırdı, sonra həmin budaqda beçələnmiş iki budaqcığı da dartıb qopartdı. Sevinə-sevinə tələsik yerə endi. Doranın suya gedib-gəlmə vaxtının çoxdan ötdüyünü bilsə də, gilas şaxlarıyla gəlib gah böyürtkən kolunun dalında dayandı, gah da şaxları ehmalca kola ilişdirib qaçaraq cəviz ağacının dibinə gəlib gözlədi. Onun hesablamasına görə, Dora aşağıda göründüyü andan gəlib cəviz ağacına çatınca, Azad gilas şaxlarını gizlətdiyi yerdən götürüb qaçaraq gətirib ona verməliydi. Yenə də Allaha yalvardı ki, həmin anlar oradan kənd adamlarından keçən olmasın.

Beşinci dəfəydi anası onu yeməyə çağırırdı. Azad anasına:

– Bir çoban dürməyi tut, gəlirəm, - dedi. Əslində, yemək də yadına düşmürdü. Anasının əl çəkməyəcəyini bildiyindən, qaçaraq evə gəldi; sulanmış lavaş yaxşı islanmadığından anası dürməyi tutanacan azacıq ləngidi. Azada görə Dora su gətirməyə getsəydi, artıq cəviz ağacının yanından keçib getmiş olmalıydı. Odur ki, dürməyi anasından alcaq, çeşməyə sarı götürüldü, iki döngəni keçəndən sonra bir az arxayınlaşdı, "Uzaqdan görüncək, geri qayıdıb şaxları verə bilərəm" düşündü. Ancaq o, bulağın başında kimsəni görmədi. Qayıdıb şər qarışanacan gah cəviz ağacının altında oturdu, gah oturduğu yerdən evlərinin arasındakı iyirmi-iyirmi beş addımlıq yolu dəfələrlə gedib (gedərkən dəfələrlə qanrılıb geri baxdı) qayıtdı, gah da böyürtkən kolunun yanına gəlib açdığı deşikdən baxdı, baxdı... Səhər tezdən çaylağa gedib qıraçı - qarmaq kəsəndə, gilas ağacına dırmaşıb budaqları əyıb şax-budaq edəndə, cəvizin dibindən evlərinəcən olan iyirmi-iyirmi beş addımlıq yolu dönə-dönə gedib-gələndə, çeşməyə sarı yollananda, boyürtkən kolunun deşiyindən yolu güdəndə, Azad anasından öyrəndiyi ermənicə "Ari qnanq mer ayqin" (gəl gedək bizim baxçaya) bir cümləni ürəyində, bəzən də pıçıltıyla əlli, bəlkə də yüz dəfə söyləmişdi. Anası sevimli oğlunun dil öyrənmək həvəsini görəndə sevinir, bildiyi hər sözün dəqiq deyilişini, tələffüzünü ona həvəslə söyləyirdi. Ədəbi dildə "qnanq" - gedək sözünün İrəvan ləhcəsində "etanq" olduğunu oğluna bildirdiyindən, Azad Doraya deyəcəyi o bir cümlədəki "gedək" sözünü mədənimi, yoxsa şəhər ləhcəsindəmi söyləməyi barədə bütün günü fikirləşsə də, bir qərara gələ bilmirdi. Qırdığı gilas şaxlarını Doraya verəcəyi vaxtdan bir gün sonra Azad onu bağçalarına dəvət edəcək, altından keçdikləri bütün ağaclar barəsində ona danışacaq (hansı dildə danışacağı barədə düşünmürdü), gəlib o nəhəng gilas ağacının dibinə çatacaq, əlində qıraçı - qarmaq bir anda pişik kimi ağaca dırmaşacaq, o qorxulu budaqda qalıb iriləşib daha da şirinləşmiş gilasları qarmaqla yarpaqqarışıq sıyırıb tökəcək, sonra

yerə yenib gilasları yığacaq, ağacların yerə yaxın budaqlarını qaldırıb Doranı onların altından keçirəcək, gəlib böyürtkən kolunun yanında dünən maşağaclarını yerə sancıb üstünü şax-budaqla, ot-ələflə örtdüyü iki adamın sığa biləcəyi hamının, hətta doğma anasının gözündən uzaq, gizlin bir yerdə qurduğu evciyə girib qabaq-qabağa əyləşəcək, saplağından tutduğu gilasları Doranın gül dodaqlarına toxunduranda o, ağzını azacıq açıb gilası ağappaq sədəf dişləri arasına alanda Azad barmaqlarını ona toxundurmadan gilasın saplağını ehmalca dartıb qoparacaqdı...

Qaranlıq düşmüşdü. Azad şorba dolu qaşığı yenicə ağzına aparanda Qambayın tanış fitini eşitdi. Doradan bir xəbər öyrənmək ümidiylə cəvizin dibinə cumdu. Ancaq Qambay, kənd uşaqlarıyla bütün günü çayın qabağını kəsib keçən ilkindən qat-qat enli, uzun, böyük bir göl düzəltdiklərindən, o gölün bir yerinin ən uca boylu adama boy vermədiyindən, qırağındakı hündür, nəhəng qayadan o dərin yerə arxayınlıqla dəfələrlə millləndiyindən, hava üfürülmüş kameri ortasına keçirib kitab oxuya-oxuya ləzzətlə üzdüyündən, balaca uşaqların orada çimməyini qadağan elədiklərindən, axşama sarı gün əyiləndən sonra qayaların, qumun qızdığından, saatlarla sudan çıxmayıb tir-tir əsib gömgöy göyərmiş çəlimsiz, arıq uşaqların qayaların üstünə kələzlər-kərtənkələlər kimi sərilməsindən, Dilavərin də orada olmasından, sabah buldozerini gətirib gölü daha da enlədəcəyinə, dərinləşdirəcəyinə söz verməsindən, bu vaxtacan Lök kəndinin tarixində bu böyüklükdə gölün olmadığından həvəslə danışdı. Qambaya görə bu xəbəri eşidəndə Azad sevincdən atılıb-düşməliydi, suallar verməliydi, ancaq o, susurdu. Lök kəndinin uşaqlarının hər biri üçün qeyri-adi hadisə, toy-bayram olan göl hadisəsindən sonra (Kəndin yeniyetmə uşaqları yazın son günlərindən sentyabrın birində dərslər başlananacan o gölün qırağındakı kolxozun qarğıdalı zəmisindən oğurladıqları sütülləri ocaqda ütüb ləzzətlə yeməliydilər, kart oynamalıydılar, yaşlı adamlardan güləş fəndləri öyrənməliydilər, çaylaq boyu səpələnmiş hindili-böyürtkən kollarından yenicə qızarıb dəymişlərini qoparıb yeməliydilər, gölün qənşərində yarlığandakı nəhəng gövdəli dağdağana sarmaşmış, budaqlarından sallanan üzüm qoraları yenicə qaralmağa başlayanda bir-birinin həvəsinə 8-10 lüt-ətcəbala uşaq ilan kimi dağdağana dırmaşmalıydı, hansı qızın hansı oğlanla məktublaşmasından, görüşməsindən danışmalıydılar...) birdən-birə söhbəti dəyişib Dora barəsində soruşmaq Azada çətin gəldi. Qambay, dostunun susduğunu görüb:

– Birtəhərsən, nə olub sənə?.. - deyəndə küçənin yuxarısından Azadın atasının qaranlıqda kiminləsə söhbət edə-edə yaxınlaşdığını duycaq, Qambay:

– Səhər görüşərik, - deyib, tələsik küçəaşağı, Azadsa evlərinə sarı əkildilər.

Hələ yer-yurd, havalar, sular əməlli-başlı qızmamış, gün çırtlamadan gölün qırağına yığışan "kür-küçüyə, kimsəsiz, avara uşaqlara", lap uzaq qohumluğu çatan Qambayın özünə Azadın qoşulmasını istəməyən ata, gah oğlunun çayın buz kimi suyunda çimib sətəlcəm olub yorğan-döşəyə düşəcəyindən, gah da tərbiyəsinin pozulacağından ehtiyat edirdi. Odur ki, hər il yayın birinci ongünlüyündə ata iki qızıyla oğlunu hamıdan qabaq yaylağa göndərirdi. Ancaq uşaqlar yaylağa təkcə dincəlməyə, ətə-qana gəlməyə göndərilmirdi. Kəndin kolxoz sədri olan ataları başqalarına dili uzun olsun deyə, aranda barama becərilməsində, meyvə yığımında, ot, taxıl biçinində, silos basdırılmasında və bütün iməciliklərdə o, öz uşaqlarını, qadınını işləməyə məcbur edirdi. Yaylaqda isə onları bir hektardan çox kartof zəmisi gözləyirdi. Yaylağa gəldikləri günün

səhərisindən ta avqustun son günlərinəcən uşaqlar gün çıxmamışdan evlərindən iki kilometrədək arana sarı aşağıda olan kartof zəmisinə gəlir, gün batanacan (günorta yeməyinə və dincəlməyə ayrılan saatyarım vaxtdan başqa) orada çalışırdılar. Adamın gözünə duran böyük kartof zəmisinin civələrini - ləklərini alaqdan təmizləyərək, kərkiylə vərləyib (qazdıqları torpağı kartof zoğlarının boynuna yığaraq) tarlanın yuxarı başına çatmamış, arıtlanıb təmizlənmiş civələri yenidən sapsarı çiçəkli alaq basırdı. Suvarma zamanı yarısı sərt yamacda olan zəminin yuxarıdakı ləklərin bir yerində su göllənib daşanda, selləmə su altbaalt sıralanmış bütün ləklərin torpağını yuyub aparır, suyun açdığı selovda yenicə dib bağlamış kartofun saçaq-saçaq köklərindən balaca, girdə muncuqlara bənzər kartofcuqlar ağara-ağara qalanda uşaqların işi birəbeş çətinləşir, onlar zəmidən uzaqda qazdıqları torpağı kisəyə, bəzənsə döşlüklərinə, ətəklərinə yığıb gətirərək dağılmış civələri yenidən bərpa edirdilər.

Azad səhər tezdən yuxudan ayılanda gün kəndi bürümüşdü. O, tələsik üzünü yuyub quruladı, şalvarının arxa cibindən çıxartdığı daraqla islanmış tellərini daraya-daraya cəvizin dibinə tələsdi. Küçəni bomboş görəndə arxayınlaşıb boyürtkən kolunun yanında qurduğu evciyinə sarı getdi. Tavandan asdığı gilas şaxlarını görəndə sevindi, ancaq yarpaqların ölüşgüdüyünü görəndə dilxor oldu, “bu gün mütləq verməliyəm” düşündü, qayıdıb cəvizin dibinə çatanda Doranın Maralla söhbət edə-edə gəldiyini görəndə geri dönüb evlərinə getmək istədi. Ancaq gec idi, onu görmüşdülər; Maralla Dora ona baxıb gülə-gülə nəsə danışırdılar. Azad bilmirdi daşın üstündə otursunmu, ayaqüstə dayansınmı, yoxsa çıxıb getsinmi. Qabaqlar səhər-səhər işə gedən, axşam çağı yorğun-arğın işdən dönən ərgən qızların bəziləri bu yoldan ötəndə daşın üstündə oturmuş Azada yaxınlaşıb onu sevələyib yan-yörəsindən bir çimdik, daş kimi bərk al yanağından bir burmac götürmədən keçib getməzdilər. Keçən ilin sentyabrında şagirdlərin də iştirak etdiyi silosbasdırma iməciliyində, indi Dorayla gələn iyirmi iki yaşlı əndamlı, əsmər üzlü Maral qarğıdalı zəmisində adamlara bulaqdan su gətirən Azadla qarşılaşanda ondan bir parç su alıb içmiş, ehtirasla “susuzluğum sönmədi” deyib onun yanağını necə dişləmişdisə, Azad utandığından səsini çıxartmasa da, gözlərindən gildir-gildir yaş axmış, göyərmiş izlər bir ayacan al yanağından silinməmişdi.

Əri müharibədə itkin düşmüş, kəndin poçtalyonu qırx beş yaşlı Məsməcan bəzən təsadüfi yol maşını olmayanda rayondan kəndəcən səkkiz kilometr yolu piyada gələndə, nəfəsini dərmək üçün bu cəviz ağacının altındakı daşın üstündə Azadla yanbayan oturub bir an nəfəsini dərəndən sonra çantasını eşələyərək yaxınlıqdakı qonşulara gələn məktubları, qəzetləri ayırıb bir qırağa qoyar, “Kommunist” qəzetinin birini Azada verib:

– Sən niyə belə şirinsən? - deyib əlini onun kürəyinə çəkər, sonra başını sığallayar, yalvarıb dilə tuturmuş kimi:

– Məni al da, nə olar, bir yerdə yatarıq... Səni lütbala soyundurub bütün gecəni sinəmin üstündə saxlaram, - deyər, Azadın qıpqırmızı qızarıb utanmasından ləzzət alırmış kimi... – Bilirsən necə verərdim sənə, elə qəşəng elə gözəl eləşərdik ki... – söyləyib gedərdi. Azad nə qədər utanıb sıxılsa da, səhərisi gün Məsməcanın uzaqdan gəldiyini görəndə oturduğu yerdən qalxıb getməzdi.

Bu dəqiqə Azadın nifrət elədiyi bir adam vardısa, o da Maralıydı. “Səhər tezdən bu hardan gəlir, onların evi kəndin başındadı axı. Eybi yox, qayıdanda Dora tək olacaq...” - özünə təskinlik verdi. Onun yanına çatmağa iki addım

qalmış Maralın ermənicə: – Sədrin oğludu, - dediyini Azad başa düşdü, yenə də yanaqları od tutub yandı, - qız kimi gözəldi, adamın yeməyi gəlir... - söylədi. Maralın sonra dediklərindən “gözəl” sözünün də ona aid olduğunu başa düşdü. Yenə ermənicə nəsə deyəndə Dora təəccüblə güldü, Maral sevgiylə bir an Azadı başdan-ayağa süzüb:

– Bu qıza deyirəm sən mənim ərimsən, eləmi? - soruşanda onu uşaq yerinə qoyub məzələnməyindən alındı, üzündəki qızartı bozartıya çevrildi, yox işarəsi kimi əsəbi-əsəbi əlini, başını eyni zamanda yelləyib:

- Sən mənim xalam yerindəsən, - dedi; bu sözləri ermənicə deyə bilmədiyinə təəssüfləndi. Doranın doğma, mehriban, xurmayı iri badamı gözlərinin ona tuşlandığını Azad bir andaca gördü...

Azad cəvizin iri gövdəsinin arxasında dayanıb oğrun-oğrun baxanda Doranın yenə də Maralla üzüaşağı gəldiyini görüb kor-peşman böyürtkən koluna söykəli evciyinə sarı yollandı. Tərs kimi Dora Maralın sol yanınca addımladığından kolun deşiyindən həyəcanla baxan Azad yolun on addımlıq hissəsində onu əməlli-başlı görə bilmədi; Maralın yekə əndamı ona iyrənc göründü, onun yıxılıb üzüqoyulu yerə sərilməsini arzuladı, ürəyində dədə-nənəsini, bacı-qardaşını söydü. Azad həmin gün gilas şaxını Doraya verəndən sonra günortaya yaxın özünü xoşbəxtcəsinə gölə çatdırmalıydı, gün batanacan o gölün eninə, uzununa üzməliydi, qayanın başından dönə-dönə gölün dərin yerinə millənməliydi, ən başlıcası da qızmar quma uzanıb Qambayla baş-başa verəndə Doradan söz salmalı, onun barəsində yeni-yeni məlumatlar öyrənməliydı. Ancaq bir dəfə Doranın axşam cağı çeşməyə getdiyini gördüyündən “göl qaçmır, sabah gedərəm” fikirləşdi, həmin gün qaş qaralanacan gah cəviz ağacının dibində kitab oxudu, gah cəviz ağacıyla evlərinin aracındakı iyirmi-iyirmi beş addımlıq yolda var-gəl elədi, gah da böyürtkən kolunun deşiyindən görünən daşlı yola baxa-baxa qaldı.

Hələ on gün bundan qabaq atası evdə:

– Yavaş-yavaş yır-yığış eliyin, yaylağa köçməyin vaxtıdı, - deyəndə sanki Azadın ürəyinə bıçaq soxmuşdular. Bu gün şər qarışanda evlərinə gəlib odeyala bükülü yorğan-döşəyi, fərməşə, kisələrə yığılmış pal-paltarı, xurcundakı qab-qacağı, ayaqları bağlı, yerə döşəli toyuqları, onların yanında ağzı bağlı balaca səbətciklərdə cikkildəşən cücələri görəndə elə bil Azadı ilan çaldı, ayaqlarını yerə döyərək ağlamsına-ağlamsına:

– Mən get-mi-rəm, mən get-mi-rəm!.. - deyə-deyə eyvanın o başına, bu başına gedib-gəldi. Anası “Tezdənnən ac-susuz hardasan” soruşdu, oğlunun qolundan tutub “gəl xörəyini ye” dedi. Azad dartınıb anasının əlindən çıxdı, gedib armud ağacının altında qaranlıqda oturdu. Anası yeməyi hazırlaya-hazırlaya mehriban səsiylə:

– Böyük oğlansan, razı olarsanmı bacıların təkcə getsin... Bir həftədən sonra biz də gələcəyik... İki gündü davar yaylaqdadı, keçilərimizi sağan yoxdu, bir gün də ötsə, məmələri partdıyar...

Qaranlıqdan Azadın hikkəli səsi eşidildi: – Mən getmiyəcəm!...

– Bilirsən nə bişirmişəm sənin üçün, göy maş... Ölü yesə, dirilər. Gəl ye, qadan alım, gəl...

– Yee-mi-yəcəm! Yee-mi-yəcəm!.. Mən ölmək istiyirəm...

O axşam anası nə illah eləsə də, Azad bir qırıq çörək yemədi. Gecə xoruzun birinci banında anası Azadı oyadanda Qatırçı Xəlil artıq üçüncü qatırı yükləyirdi. Azad yarıyuxulu gözlərini ova-ova ağlamsınaraq:

– Heç olmasa bir gün qalaydım... - deyəndə anası açıq pəncərədən boylanaraq pıçıltıyla ərinə:

– Qoy bircə gün qalsın, dünya dağılmaz, uşağın bağrı çatlıyacaq, sabah göndərərik, - deyəndə atası hirslənməyə bəhanə axtarırmış kimi, qışqıra-qışqıra:

– Kəs səsini! Bütün günahlar səndədi! Çayın suyu hələ buz kimidi, istiyirsən sətəlcəm olsun, işin bu qızğın çağında balnisaya ayaq döyməyə halım yoxdu...

Anası pəncərənin qabağından çəkilsə də, atası hələ də gur-gur guruldamağındaydı:

–Yox bir, ilin-günün bu vaxtı sabah da bir qatırı, qatırçını işindən eləməliyəm!..

Azad atasının qırımını görəndə susdu, Qatırçı Xəlil qıçının birini azacıq əyib əlini dizinə çırparaq Azada:

– Gəl ayağını bura qoy, - dedi. Azadın duruxduğunu görən anası nəvazişlə onun qolundan tutub:

– Yeri, gözəl balam, bir həftəyə biz də gəlirik, qartopluğun (kartof zəmisinin) yanında çayın qabağını kəsib özüm sənə bir göl düzəldəcəm, burdakı onun yanında yalan olacaq, - söyləyib onu ehmalca qatıra sarı çəkdi. Azad hikkəsindən “O göldə özünüz çimərsiniz” demək istədi, ancaq yad kişinin yanında bu sözü deyə bilmədiyindən hirsi-hikkəsi yaxşı çeynənməmiş kal armud kimi boğazını sıxıb göynədə-göynədə içinə dağıldı. Xəlilin səsində nəvaziş, mehribanlıq olsa da, bəslənib ərköyün böyümüş sədr oğlunu quş kimi qaldırıb fərməşin üstünə aşırmasında, palanın sağından, solundan sallanan totuş qıçlarını dartıb düzəltməsində, onların üstündən sicimi əsəbi-əsəbi çəkib bərkitməsində, əlini palanın qaşına çırpıb ucadan:

– “Eşşək yoxuşu”nda burdan yapışarsan, - deməsində qatırçının ondan xoşu gəlmədiyini Azad yeniyetmə fəhmiylə dərhal duydu.

Son iki gün ərzində Doranı görə bilməməsi, qorxu içində qırdığı gilas şaxlarını ona verə bilməməsi, rəyini soruşmadan ata-anasının onu zorla yaylağa göndərməsi, qatırçının körpə uşaq kimi onu qaldırıb fərməşin üstünə aşırması sanki cansız bir oyuncağın ayaqlarını o yana, bu yana çəkib yerini rahlaması bir yana, fərməşin arxasına qaytanla bənd edilib başıaşağı sallanan toyuqlar kimi Azadın hər iki qıçının üstündən çəkilən boz sicim onun yenicə oyanmış mənliyini, kişiliyini yazda təzəcə cücərmiş otları şıdırğı dolu qəfil vuran kimi şil-küt edib, sındırıb əzdi. Utanıb ağlaya bilmədiyindən, qatırçıya etirazını bildirəmmədiyindən, qaynayıb aşıb-daşan qəzəbi, hirsi-hikkəsi içinə doldu.

Açılmış əjdaha ağzı kimi qorxulu, zəhmli dərin-dərin yarğanların başından uzanan dar yaylaq yolunda sanki yolçulardan nəmər almaq üçün qarın verib yola sallanmış qayalara fərməşin sol tayı ehmalca sürtünəndə, qıçının üstündən sicim keçirilmiş Azad ayaq pəncəsini iki dəfə qayaya dirəyib gücü gəldikcə itələdi, qatır büdrəyib yerişini azacıq dəyişsə də, dərhal özünü düzəldib yarlığanın başından ehtiyatla yoluna davam elədi.

Yaylağa günortaya yaxın çatdılar. Qatırlardan açılan yükü evə daşıyıb yerbəyer edəndən sonra böyük bacı dolçanı götürüb keçiləri sağmaq üçün tələsik bərə yerinə yollandı. Böyük bacının tapşırığına görə evdə qalan Azadla bacısı əvvəlcə toyuq-cücəyə hin yeri, sonrasa üç yastı daş tapıb evlərinə bitişik kalafada ocaq düzəltməli, sağıb gətirdiyi südü bişirmək üçün kənd evlərinin yan-yörəsindən odun əvəzi dartıb kökündən çıxartdıqları qurumuş iki qucaq lülü gətirməli, bir də birgözlü evlərinin üstünə çıxıb damın ot-ələfini kəliməliydilər. Toyuq hiniylə ocaq yerini bacı-qardaş birgə hazırladılar. Adamın ətinə batarkən ilan zəhəri kimi göynədən sarı tikanlı qanqalların arasından

keçib lülü toplamağı əziz qardaşına qıymayan bacı gödək, əyri saplı beli ona verib:

– Sən yavaş-yavaş damın otunu kəli, - deyib hələ ayaq izi dəyməmiş, qanqalla əhatə olunmuş evlərin arasıyla sərt yoxuşu dırmanmağa başladı.

...Yaylağa gəldiklərinin doqquzuncu günüydü. Böyük bacısıyla bərəyə sağına gedərkən həmişə eyni ardıc ağacının kölgəsində bəzən ayaqüstə, bəzən də yerə yatıb harasa baxaraq fikirli-fikirli gövşəyən sallaq, iri və enli qulaqlı, məmələri qısa, şux əmcəkli, sifətindən gülümsərlik duyulan kürən, mehriban qabaq (buynuzsuz keçi) keçilərində, yaylaq-aran yolundan kartof zəmisinə ələmə-dolama sallanan cığırın yan-yörəsindəki topcaq gəvənlərdə, açıq göy gövdəli lülünün sapsarı güllərində, kartof zəmisini basmış alaq otlarının narıncıya çalan sarı çiçəklərində, günorta naharında soyulub-bölünmüş yumurtanın sarısında, bir sözlə, gözünün aldığı hər yerdə Azad Doranı görürdü. Üç gün qabaq anası yaylağa gələn günü ondan ermənicə "Ari qnanq ander manqalu" (gəl gedək meşəyə gəzməyə) - sözlərini öyrənmişdi. Ona elə gəlirdi, günlərin bir günü Dora mütləq yaylağa gələcək, onunla köhnə tanışı kimi görüşəcək, kəklikotundan tutmuş çoxusunun adını bilmədiyi al-əlvan dağ çiçəklərindən iri çələng bağlayıb ona bağışlayacaq. Dağların döşündəki yamyaşıl, güllü-çiçəkli gözələrdə yan-yana oturub qarşıdakı yamyaşıl, qalın ormanlı dağları seyr edəcəklər. Dağların sərt yoxuşlarını qalxanda, enişlərini enəndə onun əlindən ehmalca tutub kömək edəcəkdi, qarşılarına çıxan yemişan kollarının dəyib qızarmış iri meyvələrini yığıb ona verəcəkdi. Aranda bağçalarının qırağında düzəltdiyi xəlvət evcik kimi, Azadın burda da gözaltı elədiyi, insan ayağı dəyməyən yerləri vardı. Bir məhrəm adam kimi Azad Doranın əlindən yapışıb gah kartof zəmisinin ayağından axan çayın sürüşkən, oynaq daşlarının üstündən adladaraq, qabaqcadan dar cığır açdığı adama boy verməyən baldırğanlığa, gah qarşı dağın ətəyindəki qalın, gün işığı düşməyən palıd, yaxud, ardıc pöhrəliyinin altına aparır, quru torpaqda oturmasın deyə, pencəyini çıxarıb onun altına sərirdi. Həmin gün axşamüstü işdən sonra yorğun-arğın ələmə-dolama cığırla yoxuşu qalxıb yaylaq - aran yoluna çatanda Azad özlərindən xeyli yuxarıda gün işığının dağın başına sarı dırmandığını görəndə qarşı dağı bacılarına göstərib:

– Nədəndi səhər tezdən gün çıxanda işığı o dağın başından çay kimi aşağı axır. Batanda bu biri dağın ətəyinnən üzüyuxarı dırmaşır? - soruşdu. Bacılar cavab tapmadığından sözləşmiş kimi ikisi də birdən güldü. Nəfəslərini dərmək üçün ayaq saxladılar. Böyük bacı başını qaldırıb onların dayandığı yerdən xeyli yuxarıda çəkilib getməkdə olan sapsarı gün işığını görəndə kövrək, həzin səslə oxumağa başladı:

– Səni mənə verməzlər, amaaan, saaarı gəliin, yandım amaaan, saaarı gəliin, saaarı gəliiin...

Azad qaçaraq dağın döşüylə yuxarı dırmanmağa başladı. Balaca bacı həyəcanlı uca səslə:

– Qəci (qardaş), hara gedirsən? - soruşanda Azad arxaya dönmədən:

– Siz gedin, lülü yığıb gəlirəm, - dedi. Xeyli aralandığından son kəlməni deyərkən onun qəhərləndiyini, səsinin titrədiyini bacılar hiss etmədi. Azad qaranəfəs dırmaşaraq dağın başına çatanda, gün işığı uçaraq ondan uzaq uca bir dağın başında saralmaqdaydı.

Bacılar gədiyi aşıb gözdən itmişdi. Azad gözləri doluxsunmuş, boğazında qəhər, üstdən aşağı yellənə-yellənə gəlib yola çatdı və dayanmadan arana sarı üz tutdu. Dərəyə çatanda havanın qaraldığını görüb, hələ bundan sonra neçə dağ, neçə dərə keçəndən sonra nəhəng palıd, ulas, qoz ağaclarının

baş-başa verdiyindən günün günorta çağı Günəşin bir telinin belə yarıb keçə bilmədiyi, buradan təkcə keçən yolçunu vahimələndirən, gecələrsə cinlər çalıb oynaşan "Aşağı çay" deyilən yerə çatacağı ağlına gələndə qorxub tez geri döndü. Yolun qırağında hələ də günün istisini canında saxlamış nəhəng boz qayaların başında iri-iri kərtənkələ-kələzlərin bəziləri uzaqdan Azadın hənirini duycaq bir andaca ya özünü bir-birinə söykənmiş qayanın yarığına dürtür, ya da qayanın arxasına atılıb gözdən itirdi. Gün batıb sərin düşəndən sonra ilanların yola çıxdığını bilən Azad gözünü yoldan çəkmədən tələsik irəliləyərkən neçə gündən bəri canına, qəlbinə yığışmış həsrətini, ayrılıq acısını, kədərini sanki özündən qovurmuş kimi astadan bayatı çəkirmiş təkin:

– Bizi görüşməyə qoymadılar... Ay Dora, heeey!.. - dedi və kiminsə eşidəcəyindən qorxaraq gözüyaşlı yan-yörəsinə baxdı. Yoldan on beş, iyirmi addım aralı qayanın başında iri bir kələzin diqqətlə ona baxdığını gördü. Azada elə gəldi, arana gedə bilmədiyinə görə kələz onun qorxaqlığına rişxəndlə gülür. Yerdən götürdüyü daşları hər dəfə atanda kələz başını bir dəfə sağa, bir dəfə sola, bir dəfə də aşağı əyərək sanki heyrət və qürur, bir az da saymazlıqla Azada baxdı. Hirslənmiş Azad qayaya yaxınlaşıb yenə əyilərək daş götürəndə kələz cəld qayanın arxasına tullanıb gözdən itdi.

* * *

Doğma ata-baba yurdlarından qovulan türklərin bir bölüyü gəlib Bakıya sığınan Allahverdi oğlu Balaca yas məclislərinin birində ilan əhvalatını söyləyəndə... yəni erməni Yorinin atdığı daşlardan təcrübəli boksçular təkin başını zərbədən yayındırıb sağa, sola, bəzənsə aşağı əyən quyruğu üstə dayanmış gürzədən danışdığı məqamda Azadın qulağı Balacada, xəyalısa düz əlli altı il öncə yaylaq yerində boz qayanın üstündəki o qoca, qartımış, həyasız, qotur kərtənkələdə və Doranın həsrətindən qovrulduğu anlarda, günlərdəydi... Ancaq ilk sevgisiylə bağlı o anlar, o acı xatirələr yetmiş yaşlı Azadın yaddaşından gecənin qaranlığı göy üzündə bir anda axaraq batıb gedən ulduza bənzədi. İlan əhvalatını Balacanın dilindən ilk dəfə Azad otuz il qabaq doğulduğu kəndə məzuniyyətə gedəndə eşitmişdi. Əfsanəyə bənzər bu əhvalatı Balacadan başqa kim söyləsəydi, hamı kimi Azad da ya inanmaz, ya da ən azından şübhə edərdi. Orta məktəbi güclə qurtarmış, ömrü boyu sürücü işləmiş Balaca danışarkən maraqlı, duzlu-məzəli (hamını güldürsə də özü gülməzdi) yumorlamı, güclü məntiqlə danışdığınamı, bəlkə danışarkan söhbətinin bir yerində kiməsə şübhəli görünən (şübhələndiyini fəhmən duyaraq) qaranlıq məqama aydınlıq gətirdiyinə, bəlkə söhbətinin inandırıcı faktlara, şahidlərə əsaslandırdığına görəydi ki, onu qabaqcadan tanıyanlar bir yana, birinci dəfə onun söhbətinə qulaq asan inanclı dindarlar yas yerində Fatihə surəsi oxunanda, ayin qaydasına uyğun əllərini qoşalayıb irəli versələr də, mollanı yox, Balacanın maraqlı söhbətini dinləyirdilər. Balaca deyəndə ki qırxıncı illərin sonu, əllinci ilin əvvəlləri bizim Mığrı rayonunda təkcə erməni Yoridə sökülüb-yığılan beşaçılan varıydı, söküb "veşmeşoğuna" yığıb dalına ataraq çəşır yığmaq adıynan dağlara ova çıxardı, o vaxtlar silah saxlamaq qadağanıydı, özü də beşaçılan... Kimdə tutsaydılar, iş verərdilər... Bax, söhbətinin bu yerində Balaca haşiyə çıxıb deyərdi:

– Qadağandı deyəndə, o qadağa biz türklərə aidiydi. Yoridə beşaçılan olduğunu hamı bilirdi. Milis, KQB rəisləri onların evlərinə Yorinin göndərdiyi ov ətindən xəbərləri olsa da, özlərini bilməzliyə vururdu.

* * *

Hələ uşaq yaşlarından Balaca özü də bilmədən kənd camaatının sevimlisi olmuşdu.

...Doqquz yaşı olanda tək-tənha yola düşüb evlərindən beş kilometr aralıda olan Tey kəndinə gedəndə qarşılaşacağı itin, qurdun, ayının, ilanın qorxusundan çox, iki şey onun gözünə dururdu. Bir, yaz vaxtı qan-qan deyən Mığrı çayının üstündən körpü əvəzinə yan-yana uzadılmış əyri-üyrü, yerində oynayan bir cüt sığallı, sürüşkən ağacın üstündən keçmək, bir də çayı keçib iyirmi-otuz addım gedəndən sonra başlayıb, bitib tükənməyən ələmə-dolama sərt yoxuş.

Balaca əyri-üyrü ağacların üstündən qabaqlar anasıyla bir neçə dəfə keçmişdi, oraya çatcaq yenə ayağını ağacın ucuna dayayıb güc verdi, yerində dingildəməsini, oynayıb-oynamadığını yoxladı. Su qalxıb hərdən şümal, göyümsoy parıldayan ağaclara dəyir, onları yerindən oynadırdı.

Hər dəfə Tey kəndinə gedəndə, anasının dönə-dönə dediyi ”Körpünü keçəndə ehtiyatlı ol. Çaya baxma, gözün axar” sözlərini xatırladı.

Kölgə yoxuşun yarısınacan qalxmışdı. Balaca dünəndən ac olduğundan ürəyi uçunurdu. Çayı adlamağı gözü yemədiyindən yolun yarısından dönüb evlərinə qayıtmaq istədi. Ancaq evlərində bir loxma çörək olmadığı, dünəndən bəri özü kimi balaca bacısının, qardaşının, yorğan-döşəyə düşən xəstə anasının ac olması yadına düşəndə qayıda bilmədi. Doluxsundu, birdən at kişnərtisi qulağına dəydi, başını qaldıranda yoxuşun ortasında qarşı-qarşıya oturmuş iki kişi gördü. Əllərini ağızlarına aparırdılar. Elə bil uşağın gözlərinə işıq, qıçlarına güc gəldi. “Bircə qırıq, bircə loxma versəydilər...” düşündü. Yerində oynayan, islanıb parıldayan göyümsoy şümal ağacların üstündən dik yeriyib keçə biləcəyini gözü yemədiyindən, ağacların üstünə sinərək, gözlərini qapayıb qolları, qıçları əsə-əsə iməkləyib islanmış halda çayı adladı.

Yoxuşu haçan yarı elədiyini bilmədi. Uzaqdan dağdağanı görsə də, onun altında oturan kişilər yox idi. O, bir an yerində donub qaldı. Yenidən qəhər onu boğdu. Ayaqlarını güclə sürüyə-sürüyə gəlib dağdağanın altına çatdı. Yan-yörəsini, yoxuşun dolamalarını tələsik gözdən keçirdi. Kimsəni görməyəndə hıçqırıb bərkdən ağlamağa başladı. Sanki ürəyi içindən sıyrılıb yerə düşdü. Əlinin dalıyla gözünün yaşını sildi. Ayaqlarından azca aralıda qaynaşan topa-topa qarışqaları birdən gözü aldı. Qara-qara qarışqalar iri çörək tikəsinin üstünə yığışmışdı. Hərdənbir onu yerindən dəbərtsələr də, aparmağa gücləri çatmırdı. Balaca qarnıüstə yerə uzandı, qabaqca iri çörək qırıntılarını götürərək üfləyib qarışqalardan təmizlədi və tələsik ağzına qoydu. Sonra barmağını dilinə toxundurub yaşladı, göy otları bircə-bircə aralayıb xırdaca çörək qırıntılarını qarışqalardan ehmalca alıb ağzına qoydu. Hirslənmiş qarışqaların könlünü almaq istədi, ucadan dedi:

– Axı, mən yeməsəm, bu yoxuşu çıxammaram. Mənnən küsməyin də, nə olar, balaca bacım, qardaşım məni gözlüyür. Görsəydiniz onların gözləri necə böyüyüb. Anam öz payını bizə verdiyindən heydən düşüb, yataqdadı. İnciməyin də, nə olar. Görürsünüz də mən sizi əzib öldürmədim. Səhər tezdən qayıdanda əvəzini çıxacam...

Balaca başını qaldırıb yan-yörəsinə baxdı. Şər qarışırdı. O, tələsik ayağa qalxdı, fit çala-çala inamla yoxuşu qalxmağa başladı.

Pərcahan qarı səhər tezdən Balacaya şor dürməyi ilə şirin çay verdi.

– Bu da yoluna, - deyib bir dürmək də pencəyinin cibinə qoydu. Axşam dediklərini bir də söylədi:

– Nəbadə qayıdıb gəldiyin körpüdən keçəsən. Mənim qoçaq balam, vurtut kəndimizdən iki kilometr dik yuxarı qalxassan, enli, irahat “Taxta körpü”dən keçəssən, o qədər də üzüaşağı. Gəldiyindən dörd kilometr artıq gedəssən. Uzun yaz günüdü, günoprtayacan evizdə olassan...

Balacanı anbar evinə aparıb onun torbasına yarıdan keçmiş davarcıqdan üç kasa kəhrəba kimi sapsarı buğda tökdü, başını qaldırmadan kasaya işarəylə: - Bir kilo tutur, - dedi, əlini belinə qoyub dikəldi, divara yxınlaşıb mismardan asılı nimdaş qadın corabını endirib oradan götürdüyü iki qoşa ovuc quru lobyanı qalın kağıza büküb torbaya qoyaraq ağzını bərk-bərk bağladı:

– Qollarını bəri elə, - deyib torbanın iplərini onun çiyinlərinə aşırdı.

Qarı Balacanı qapılarından ötürərkən:

– De görüm, yadında qaldımı necə gedəssən? - nigarançılıqla soruşdu.

– Kəndin başında ayrılan yoldan sağa... Sonra üç yuva olan palıd ağacına çatanda genə sağa...

– Bərəkallah, fərasətli balam. Yoxuşu tələsik çıxma, tərliyərsən. Di tərpən, Allah amanında...

Balaca on beş-iyirmi addım yoxuşu qalxıb geri döndü, qarını qapılarının ağzında görməyəndə qayıdıb qaçaraq üzüaşağı sallandı. Dünən qalxdığı yoxuşun az qala yarısınacan enib dağdağanın altına gəldi. Sanki bir sapın üstüylə sakit, nizamla yeriyən qarışqaları gördü, yaxınlaşıb sallağı oturdu:

– Dünən elə bildiz sizi allatdım, - deyib cibindən çıxartdığı dürməyin bir tikəsini kəsib ovaraq yuvanın yan-yörəsinə tökdü, - Buğda söz vermişdim, torbamın ağzını açsam, sonra bağlaya bilmərəm. Yolum uzaqdı, tələsirəm, sağ olun, mən getdim, - deyib ayağa qalxdı, kefikök yenidən yoxuşu qalxmağa başladı.

1943-cü ilin yazıydı...

Ot biçinində, xırmanda taxıl döyəndə, soğan alağında, barama dəriləndə, təndir başında... Nənəş xala ilkini olan Balacanın qarışqalara olan bu rəftarından danışanda həmişə sözünü belə başlardı:

– Nənəsi ölmüş... Yetimin (atası müharibənin birinci ilində həlak olmuşdu.) ürəyi kövrəy olar...

İllər bir-biri ilə yarışırmış, bir-birinin bəhsinə ötüşürmüş kimi bir göz qırpımında gəlib keçdi. Allahverdi oğlu Balaca Vəliyev sovet ordusundan serjant - çavuş rütbəsi ilə qayıdanda, dördkünc balaca çamadanının fərşindəki qəzetin altında qulluq elədiyi hissənin “nizam-intizamlı olduğuna və tapşırıqları vaxtında, layiqincə yerinə yetirdiyinə görə” fəxri fərmanı ilə təltif olunmuş sənəd, qəzetin üstündəsə anasına, özündən kiçik bacısına güllü yaylıq, qardaşına qabağında parıldayan sarı beşguşəli qulaqlı papaq və özünün səliqəylə kağıza bükülu diş fırçasıyla məcunu, ayaqqabı şotkasıyla dairəvi dəmir qabda bir cüt qara maz, bir cibində daraq, o biri cibində tərtəmiz yaylıq, qalın köynəyinin cibindəsə əsgərlikdə qazandığı sürücülük vəsiqəsi... bir də özüylə hərbi xidmətə apardığı nizam-intizamı, səliqə və təmizkarlığı, üzüyolalığı, xeyirxahlığı, səbr-təmkini və yumorunu bir az da boyüdüb möhkəmlədərək qaytarıb gətirmişdi.

Əsgərlikdən gəldiyinin onuncu günü kəndə ayrılmış təzə yük maşını kolxozun təcrübəli sürücüsünə, beş ilin işlənmiş maşınısa Balacaya verildi. O, yağışlı havada sıçrayan suyun, çamurun qarşısını almaq üçün rezin alıb arxadakı təkərlərin arxasına, qabağına vurdu, banın böyründəki sınmış taxtanı, çatlaq-çatlaq olmuş yan güzgünü təzələdi. Hər səhər işə çıxanda hərbi xidmətdən gətirdiyi şotkayla çəkmələrinin tozunu alıb qara məcunla mazlayaraq məxmər parçayla sürtüb parıldatdığı kimi, həyətlərində saxladığı

maşının tozunu da hər gün aldı, yağışlı günlərdən sonra qanadlarından tutmuş təkərlərinəcən yorulub-bezmədən yuyub palçığını təmizlədi. Onun maşınında "apteçka"dan başqa saxlanc yerində qayçı, bıçaq, iynə, sap, fincan vardı. Taytuşları onun səliqəsinə-təmizkarlığına sataşıb "Səndən bir evə yaxşı gəlin çıxardı" deyəndə Balaca:

- Maşın mənim çörəy ağacımdı, ona necə biganə ola bilərəm... - deyib, ani sükutdan sonra "kabinkası da həm evimdi, həm də kabinetim" sözünə əlavə etmişdi.

Rayondan ayrılmış yeganə balaca avtobus gün ərzində axşamüstü bircə yol (saat beşdə) türklərin yaşadığı üç kəndin yanından keçib sonuncu erməni kəndinə gedirdi. Həmişə gözüqanlı sürücü (həm də sərnişinlərdən pul yığan) erməni Mkıç dövlətin avtobusunu dədə malı hesab edərək, adamların sıraya düzüldüyünün fərqinə varmadan, adətən birinci növbədə öz ermənilərini mindirər, boş yer qalarsa, türklərin minməsinə icazə verərdi. Gecəyə qalan yolçuların bəxti gətirəndə maşının banını ağzınacan mal-heyvan yemi, yaxud daş kömür, tikinti materialı ilə yüklədib rayonun stansiyasından qayıdan Balaca yol hərəkətinə nəzarət edən milislərə məhəl qoymadan əlində, belində ağır şələsiylə yolboyu səpələnmiş adamları maşınına yığa-yığa... bəzən yükün ağırlığından sərt döngəli, dik yoxuşlu torpaq yolu maşın zarıldaya-zarıldaya dırmaşa bilmədiyini görəndə Balaca adamları yerə düşürüb yoxuşun başında gözləmələrini xahiş edirdi.

Gecə səhərəcən yağan yağışdan dibi boşalmış daşlar, qayalar yerindən qoparaq yamacaşağı dığırlanıb yola tökülmüşdü. Sürücülər maşını balaca daşların üstündən, böyük daşların, qayalarınsa yanından sürüb gedirdilər. Balacasa qarşısına çıxan hər daşın, qayanın yanında maşını saxlayır, yerə düşür, tələsmədən onları götürüb yolun qırağına qoyaraq irəliləyirdi.

Bir neçə dərə-təpə ötəndən sonra yoxuşu enərkən döngədən qəfil çıxan milis, Balacaya "saxla" işarəsi verdi. Xeyli aralanandan sonra Balaca maşını enlənən yolun sağında əylədi. Maşından düşüb sağına-soluna göz gəzdirib aralıda gördüyü daşa yaxınlaşaraq onu götürdü, tələsmədən gətirib dal təkərin altına qoydu. Yoxuşu qalxdıqca yola tökülmüş daşları götürüb yamacaşağı dığırlatdı. Milisin yanına az qalmış, yolun üst təkər tutan yerində sönmüş ocağın külünün içindən əyri-üyrü, uzun mismarları götürüb milisə yaxınlaşıb salam verdi.

Yük maşınıyla adam apardığına görə Balacanın sürücü talonundan bir deşik açılmışdı. Bundan sonra iki dəfə sürücülük vəsiqəsi alınsa da, kolxozun sədri raykomun şöbə müdirindən xahiş edəndən sonra vəsiqə geri qaytarılmışdı. İndi Balacanın bu astagəl hərəkətini saymazlıq hesab edən milis daha da hirsləndiyindən onun salamını almadan əlini irəli uzadıb acıqlı-acıqlı:

– Pravanı görüm! - dedi. Balaca təmkinini pozmadan:

– İnger bed (yoldaş rəis), - deyib maşındakı adamlara işarəylə sözünə davam elədi:

– Hərəsinin 50-60 kilo gilası var, zavoda verəcəklər, bunların özləri tərəziyə baxmasalar, inanmazlar. Pravamı alassan, sədr yenə raykoma zəng edəcək, qaytaracaqlar. Sənin özün bəyəm raykomda oturannardan əysiy kişisən? O yaxşılığı elə özün elə, burax gedim...

– Şan vorti turk (it oğlu türk), rayonu barmağına dolamısan! Sənnən başqa bir kopəyoğlu cürət eliyib qanunu pozmur, - deyib acıqlı-acıqlı əlini uzadaraq "görüm pravanı!" - əmrlə dedi.

Ermənilərin gilasdan yana sinoy getdiklərini və milisin öz qayınanası Tsoviqdən bərk qorxduğu Balacanın yadına düşdü, o, əlini alnına çəkib yenə təmkinlə:

– Bax, məni söyüb təhqir elədin, bir yerə şikayət eliyən deyiləm, mən səbirli türkəm. Adətkar olub tanımadığın dəliqanlı bir türkə deyərsən, sonra onun altınnan çıxammazsan...

Milis bir az da hirslənərək:

– Yaşınnan yekə qələt eləmə! Görüm pravanı...

– İki gün qabaq bazarda Tsoviq xalanı gördüm. Mürəbbə bişirməyə gilas axtarırdı, fərlisi yoxuydu, söz verdim mən gətirəcəm. Seçmə sarı gilasdı. Dünən axşam bircə-bircə yığılıb. Geciksə qaralar, atılmalı olar. Sonra Tsoviq xalanın əlinnən nə sən qurtara bilərsən, nə də mən...

Milisin səsi birdən-birə dəyişdi. Əlini yelləyib:

– Get, get. Hər dəfə bir bəhanə tapıb balıq kimi sürüşüb əlimnən çıxırsan, - dedi.

Balaca konserv zavodunun yanında maşını saxladı, yerə enərək banın üstündəki adamlara "tələsmiyin" deyib maşının arxasına gəldi, banın arxa yanını açaraq "ehmalca düşün" söylədi. Yaşlı adamların əlindən, qolundan tutub enmələrinə kömək elədi. Bana qalxaraq səbətlərin hərəsindən bir xışma gilas götürüb beş-altı kiloyacan düzəldib milisin qayınanasıgilə göndərdi...

* * *

Payızın ortalarıydı. Şəftəliylə dolu yük maşınları konserv zavodunun həyətində uzun sıraya dayanıb meyvəni təhvil vermək üçün növbə gözləyirdi. Mığrı kolxozunun çobanı Vahram kolxozun qoyun sürüsünü rayondan iyirmi beş kilometr yuxarıda Vəng kəndində arxaca yığaraq başılovlu rayona gəlib, sədri zavodun həyətində tapmış, xahişdən çox tələb tonuyla köçlərini elə bu gün rayona gətirmək üçün ondan maşın istəmişdi. Kolxoz sədri İşxan Qriqoryan qabaq sıradakı maşınların erməni sürücülərinə ağız açsa da, sürücülərin hərəsi bir bəhanə gətirib razılaşmamış, sürücü də razılaşanda Çoban Vahram başını bulayıb:

– Çe, çe, Balacanem uzum (yox, yox, Balacanı istiyirəm), - söyləmişdi.

– Ay mart, inç darberutyun qa, maşin maşina eli (a kişi, nə fərqi var, maşın maşındı da), - desə də çoban:

–Balaca yaxşıdı, - deyib sözünün üstündə dayanmış, tələsdiyindənmi, münasib yer, münasib məqam olmadığındanmı səbəbini sədrə deməmişdi. Səbəbi bu idi ki, Vahramın köçünü bir dəfə sürücü erməni Hrand aparanda yük maşınını gətirib çobanın evinin qarşısında saxlamış, banın arxa yanını açmadan harasa çıxıb getmiş, bir də iki saatdan sonra qayıdıb gəlmişdi. Banın arxa yanını açanacan Vahram çox əlləşmiş, üstəlik, şəhadət barmağını da əzmişdi. Bir saatlıq yol boyu çobanın suallarına sürücünün cavab vermədiyi bir yana, banın küncündəki qabdan axıb bir kisə unun yarıdan çoxunu yararsız hala saldığını görən Hrandın həyasızcasına hırıldaması Vahramın kefinə soğan doğramışdı. Ancaq növbəti il Balaca yük maşınını Vahramın qapısının ağzında saxlamış, maşının arxa yanını açmış, banın üstünə qalxaraq süpürgə ilə süpürüb təmizlədikdən sonra Vahramla onun arvadının evlərindən daşıyıb gətirdikləri bağlamaları, qab-qacağı alıb səliqəylə yerləşdirmişdi. Banın küncünə bərkidilmiş yağ qabını açıb yerə endirmiş, ağzını bərk-bərk bağlayıb köhnə odeyala bürüyərək "kabinkada" yanında əyləşmiş Vahramın ayaqlarının yanına qoymuş, yol boyu onu dolanışığı, gün-güzəranı, otardığı sürüsü, örüşləri, otlaqlarıyla bağlı şirin söhbətə tutmuşdu. Obaya çatanda Balaca maşının arxasını açıb üstünə qalxmış, bağlamaları bir-bir səliqəylə götürüb Vahrama vermişdi.

Arxacda bütün günü ac-susuz qalmış ağtüklü sürünün vahiməsi sədri basdığından çobanın nazıyla oynamaq məcburiyyətində qalaraq, az qala bir-birinə söykənmiş maşın karvanının ortasından Balacanın maşınını çıxartdırıb birinci sıraya sürdürmüş, yük boşaldılıb təhvil veriləndən sonra Balacayla çobanın hərəsinə iki yeşik şaftalı verib yubanmadan obaya getmələrini tapşırmışdı.

Hadisənin bundan sonrakı yerini Balacanın öz dilindən eşitmişəm:

– Veşləri yüklüyüb obadan üzüaşağı düşəndə gecədən xeyli keçmişdi. Ancaq Vahramın arvadını görəndə yenicə şər qarışırdı. Çiyninə saldığı şalla qarnını örtsə də, boylu olması bilinirdi, qarnı burnuna dəyirdi. O vaxtlar yollar asfalt deyildi. Bir tərəfdən daşlı, çala-çuxurlu, dar, dolama yollar, bir yandan da arvadın boylu olmasına görə maşını lap yavaş-yavaş sürürdüm. Kətdən xeyli aşağıda, balaca düzənniy var, ora çathaçatda gördüm arvad... adı da yadımnan çıxıb, gördüm qurcuxur. Dedim yəqin subaşına çıxmaq istiyir, utanır, deyəmmir. Fikirləşdim üstüörtülü necə soruşum, maşını saxlıyım. Elə düzə yenicə çatmışdıq, kabinkanı pis iy götürdü. Turşu... şoraba çəlləyinin ağzını açanda adamı necə iy vurursa, eləcə. “Vay ma-ma!..” deyib qışqırmağıyla:

– Bahi! Bahi, saxla! Saxla! - deməyi bir oldu. Ayıb olmasın, su açılmışdı, oturduğu yer, ayaqlarının altı su olmuşdu. Qapını aşmaq istiyirdi, bacarmırdı. Tez düşüb çöldən qapını aşdım. Qollarınnan tutub ehmalca yerə endirdim. Qorxu, həyəcan içində: – Axbernes (qardaşımsan) - dedi. Obada veşləri maşının kuzovuna yığanda gennən durub baxırdı. Əri bir meşoğu götürüb yuxarı qaldırmaq istiyəndə... hə, yadıma düşdü, arvadın adı Baytsarıydı. Dedi:

– Toğ, toğ mna, na amena verçum (qoy, qoy qalsın, onu lap axırda), - dedi, əri meşoğu qaldırmışdı deyə:

– Ay mart, hinç darberutyun uni (ay adam, fərqi nədi)?- söyləyib tələsik başqa meşoğa əlini uzatdı. Arvadın ürəyincə olsun deyə, o meşoğu bir qırağa çəkdim, bütün veşlər yığılannan sonra onu lap axıra qoydum, o birilərdən yüngülüydü, bir əlimlə götürürdüm. Demiyəsən, arvadın ürəyinə damıbmış. Həyəcan içində, həm də yalvara-yalvara dedi ki, axırıncı meşoxda mələfələr var, onu gətir. Düzü, özümü itirmışdim. Əri pampağın biriydi, ancaq arvad od parçasıydı. Mələfələri götürüb gəldim, ona çatmağıma bir addım qalmış, mələfələri əlimnən qapdı, birini alıb yerı sərdi, birinı də üstünə örtdü. Günlərlə, aylarla öz rolunu məşq eliyib səhniyə çıxan artist kimi, köpəyin qızı, elə bil gecənin qaranlığında, çölün düzündə doğacağını bilirmiş...

Söhbətin bu yerində kimsə Balacadan:

– Qapqarannığıydı, yoxsa?.. - soruşdu.

– Qarannıx deyiləndə, maşının işığı yanılıydı, ancaq yan-yörə zil qarannığıydı, göz gözü görmürdü. Ancaq arvad faralardan düşən işıxla qarannığın arasındaydı, alaqarannıxda... Birdən uşaq səsi gəldi...

Bayaqkı oğlan yenə onun sözünü kəsib bic-bic gülə-gülə:

– Siz harda dayanmışdız? - soruşanda Balaca fikirləşməyə vaxt qazanmaq üçün adətinə uyğun əlini uzadıb qulağını qaşıdı, sakit baxışlarını tanımadığı oğlana tuşlayıb mehribancasına:

– Deyəsən, indi də siz məni təzədən dilə-dişə salmaq istiyirsiz. Erməni şoferləri bu əhvalatı eşidəndə... mənnən yanıxlıydılar, əllərinə girəvə düşmüşdü, düz bir il məni gah manqabartsui (mamaça), gah bort brnoğ (göbəktutan, akuşerka), bizim dili yaxşı bilən bir şofer də “mamaça” çağırıb lağa qoydular... Arvad, uşağın düydüyü göbəyini əlindən buraxmadan inildəyə-inildəyə:

– Qardaşımsan, bunu nəyinən kəsəy? - dedi. Tez kabinkaya qalxıb bardaçokdan pıçağı götürdüm. Gündüz paslı kanserva kəsmişdim, tələsdiyimnən silib təmizləməmişdim. Fikrimnən keçdi peşovnan təmizliyim, ürəyim gəlmədi,

körpəyə qıymadım, bardaçokda duz vardı, götürüb yaylığımın arasına tökdüm, pıçağı sürtüb təmizləyəndə barmağımı da kəsdim. Arvadın iniltisi uşağın çığırtısına qarışmışdı. Qərəz, uşağın göbəyini, - nazik bağırsıq kimiydi, - kəsdim, arvad üstünə örtdüyü mələfəylə uşağın qanını, suyunu silib-quruladı. Maşında bel-lapatka vardı, zir-zibili götürüb yolun qırağında basdırdım. Yazıq arvad işini bilirmiş, üç mələfəydi, uşağı təmizinə büküb qucağına aldı, üstünə örtdüyü mələfəni götürüb arvadın kabinkada oturduğu yeri, ayaq altını silib bulaşıqdan təmizlədim. Sözləşdik ki, uşaq obada olub. Bu əhvalatı heç evdə də danışmadım. Bir ildən sonra erməni şoferləri məni lağa qoydu. Demiyəsən, kolxoz sədriynən Vahramın sözü düz gəlmiyəndə yandığındanmı, sədri hirsləndirmək, yoxsa onu dilə tutmaq fikriyləmi:

– Allahın türkü qədər də bizimkilərdə mədəniyyət, insaniyyət yoxdu, - deyib, yolda doğan arvadına mənim necə kömək elədiyimi söyləyəndə, onlardan azca aralıda dayanmış erməni sürücüsü eşidibmiş.

* * *

Balacadan heç vaxt uduzmayan, məğlub olmayan, şişirtmə, əfsanəvi qəhrəman düzəltmək fikrində deyiləm. Qatı millətçi ermənilər onun zarafatlarını, incə yumorunu, hazırcavablığını heç cürə sinirə bilmir, ona millətçi gözüylə baxır, pərt eləmək, qisas almaq üçün, ələlxüsus da sürücü həmkarları fürsət axtarırdı. Bir qış günü, yolların buz bağladığı vaxt Balacanın maşını xarab olub yolda qalır. Erməni kəndi Teşdinnən olan Hrand arxa təkərləri zəncirlənmiş yük maşınıyla keçəndə Balacanı görüb dayanır. Onun maşınına uzun tros bağlayır, qoşqu kimi dartıb aparır. Balacanın qabaqcadan:

– Tros çox uzundu, döngələrdə arxaya bax, məni gözlə, - desə də, Nəcəfxan dərəsinin sərt döngəsində Hrand maşının sürətini azaltmaq əvəzinə, bir az da bərkdən sürür, Balacanın pəncərədən başını çıxararaq qışqırıb fit çalmasını eşitməzliyə vurur, yol buz olduğundan Balacanın maşını sürüşüb yarılğana düşür, xoşbəxtlikdən nəhəng cəviz ağacına ilişib qalır. Balaca ehmalca qapını açaraq ayağını ehtiyatla pilləkənə qoyub geriyə baxır, maşının möhkəm yerdə dayandığına əmin olub dərindən nəfəs alır, yuxarıdan ona baxıb təəccüblə:

– Ara Balaca, niya bela oldi eee? - deyən Hranda baxıb özünü sındırmayan Balaca:

– Necə olmalıydı? Müsəlman ipini, yüyənini ermənin əlinə verəndə belə də olmalıydı. Bura bizim kəfşəndi, buracan gətirmisən, sağ ol...

– Ara, bəs neyniyax eee...

– Gedəy, evdə yarım litr arağım var, apar sizin Çoban Vaçoyla için, kef eliyin... Mənnən salam söylə, maşının aşdığını de, qoy o da sevinsin, xoşbəxt olsun...

– Nə araqdı?

– Qoz...

– Ara zarapat edirsan? Qozdan da araq olar?

– Buzlu yolda, döngəni uzun trosla o skorosla buksir çəkməy olarmı?..

* * *

...Teştinli Çoban Vaçoyla Balacanın rayona, kəndlərə yayılmış əhvalatı iki il qabaq olmuşdu.

Lök kəndinin camaatı payızın əvvəlləri bəsləməlik üçün heyvanları özlərindən yuxarıdakı Vəng, Teştin, Liçk erməni kəndlərindən alırdılar. Payızın sonu çatsa da Balaca hələ bəsləmə almamışdı. Kolxozları üçün Teştin kəndindən yarım ton toxumluq buğda alıb qayıdanda bir-birinə söykəli ağtüklü sürünün yol boyu üzüaşağı ləngərlə dalğalanıb çay kimi axdığını görəndə, maşını əyləyib sürünü gözdən keçirdi, yoldan azca aralı yamacla ağır-ağır yeriyən ağzıyekə, iri başlı, qızılı rəngli burum-burum buynuzlu, yeridikcə ləngərlə yellənən qucaq dolusu quyruğunun ağırlığından bəzən dal qıçları bir-birinə dolaşan qoçu Balacanın gözü aldı. Çoban maşının yanından keçəndə Balaca ona salam verib kef-əhvalın soruşdu, gözü tutduğu qoça işarəylə: – Satdıxdı? - soruşdu. Çoban “hə” deyib getmək istəyəndə Balaca:

– Bir dəyqə dayan, hara tələsirsən? - dedi. Çoban ayaq saxlasa da geri dönmədi. Balaca ona yaxınlaşıb: – Nə verim ona? - soruşanda çoban gözünü sürüdən çəkmədən hannan-hana:

– Hələ satmıram, - cavab verdi. Balaca:

– Bəs nə vaxt satacaqsan, behini verim, nə vaxt desən, gəlib apararam, ürəyinnən keçəni de.

Çoban susdu, Balaca dil töküb yalvardı, - ay kirvə, innən belə nə qədər kökələcək, onun da pulunu hesabla, - dedi. Vaçogilin kəndində meyvə ağacı bitmədiyindən, həmişə meyvəyə tamarzı olduqlarından:

– Pulunnan başqa bir yeşik üzümnən, almadan, armuddan, üstəlik, bir torba ərik qurusu da verərəm, - dedi Balaca. Daşdan səs çıxdı, çobandan səs çıxmadı. Yavaş-yavaş sürünün ardınca addımladı. Balaca kabinaya qalxıb maşını işə saldı, yavaş-yavaş sürüb çobana çatanda başını çölə çıxarıb:

– Bax, Vaço, sonra demə, sənə demədim, gözüm o qoçda qaldı. Qabaqca dedin satıram, sonra bilmirəm niyə dəbb elədin. O qoçu qurd yeyə bilər, daşdan aşar, yamacdan yoğalanıb murdar ola bilər. Onu bil ki, öz ermənini allatsan, Allah bəlkə də günahınnan keçər, ancaq müsəlmanı allatsan, bağışlamaz...

Vaço yolun qırağına çıxıb Balacaya baxdı:

– Niya ara, musurman allaxa ruşvat verdığına gora sizi çox istiyer?

– Yox, Vaço, siz Allahın sözünə baxmırsız...

– Niya baxmırıx?..

– Özünüzü Allahdan ağıllı bilirsiz. Allah deyib işməy olmaz, siz içirsiz...

– Ara, musurmannar da içir eli...

– Yox, müsəlman içdi, o, müsəlman deyil.

– Musurman ağzının dadını bilmir eli, içanda na olar?

Bayaqdan çobanın yanınca maşını yavaş-yavaş sürən Balaca sürüyə çatanda əyləci sıxdı. Vaçonun da ayaq saxladığını görəndə bir il öncə baş vermiş, səs-sorağı ən ucqar kəndlərə də yayılmış əhvalatı danışdı; içib keflənmiş mığrılı Serqonun Qacaran yolunda maşınını gabdan aşıraraq özüylə bərabər dörd cavan oğlanın da ölümünə səbəb olduğunu, rayonda içib keflənmiş qırx üç yaşlı Dəfçalan Qarikin qapıbir qonşusu, baytarlıq idarəsində işləyən Ardavazgilin evlərinə girib günün günorta çağı on dörd yaşlı ceyran yerişli, alma gözlü, sifəti su kimi duru olan məktəbli qızını zorladığını, Qarikə yeddi il həbs cəzası verildiyini, məktəbli qızının başını ülgüclə qırxdırsa da ürəyi soyumayan valideynlərinin onu Türkmənistanda yaşayan xalasıgilə göndərməsini, xəcalətdən başlarını çölə çıxara bilməyən ata-ananın ay yarımdan sonra gecəynən biryolluq köçüb Adlerə getdiklərini təmkinlə, bitbəbit Vaçoya xatırladıb:

– Hə, Vaço, onlar işməsəydi, mi mıdaci eli (bir fikirləş də), bu bədbəxliklər baş verərdimi?.. Vaçonun fikrə getdiyini görəndə “deyəsən yumşalıb” düşünən Balaca: – Hə, nə deyirsən, qoçu veirsən, vermirsən?..

Yoldan aşağıda sürüdən xeyli geridə qalıb seyrək kol-kosun arasında dümələnən tək qoyunu görən Vaço yerdən balaca bir daş götürüb ona sarı atıb: – Hey-hey!.. - səslədi, başını qaldırıb sürüdən aralıda qaldığını görəndə iti addımlarla taytıya-taytıya sürüyə çatmağa tələsən qoyundan gözünü çəkməyən çoban:

– Goruram ağıllısan, mana bir maslahat ver, eli, - deyəndə Balaca “deyəsən insafa gəlib” - düşünərək:

– Hametsek, hametsek (buyurun, buyurun), - dedi. Vaço çevrilib altdan-yuxarı Balacaya baxdı, təzə ev tikdirdiyini, içini suvatdırdığını, əhənglə ağartdırdığını, bir ay ötsə də hələ də qurumadığından, arvad-uşağını rayondan gətirə bilmədiyini dedi.

– Ara, bas na eliyax ki, qurusun? Miçev tsunu çi yeqel (nə qədər ki, qar yağmayıb, koçmağ istiyırıx).

– Saqqalın ağarsın, ay Vaço, mən onu uzaqbaşı, iki günə qurutsam, o qoçu mənə verərsənmi? - soruşdu. Vaço istehzayla gülüb:

– Ara, bir sozu, bir maslahatı bir qoça uzumes poxes (dəyişmək istəyirsən)?

– Üstəlik, ürəyinnən keçən pulu da verrəm...

– Hedo qnaluyes aselu sari qlxin mi hayin xapetsi (sonra gedib deyəcəksən dağın başında bir ermənini aldatdım).

Balaca cobanın ipə-sapa yatmayacağını görüb:

– Sən mənə pisliy elədin, ancaq mən... Bizdə belə bir məsəl var: Balığı at dəryaya, balıq da bilməsə, Xalıq bilər...

– Xalıq hinça ee (nədir ee)? – soruşanda:

– Xalıq, Allahın adlarınnan biridi, - Balaca söylədi, aralıda taxılı biçilmiş zəminin qırağında üst-üstə yığılmış köhnə maşın təkərlərinə gözü sataşanda:

– Sənin baxtın gətirdi, Vaço, - dedi. - Bu dünyada hərənin bildiyi bir şey var. Məsələn, bu sürüdə istənilən erkəyə gennən baxcaq, onun neçə kilo, neçə yaşda olduğunu, axşam arxaca qayıdanda hansı toğlunun, şişəyin, yaxud erkəyin gəlmədiyini, nə bilim, otlara, göy üzünə baxanda yağışın yağıb-yağmadığını sənin bildiyinə şübhəm yox. Mənim də... rayonda Mexanik Xaçik var, oncan bilməsəm də, az-maz maşınnan başım çıxır. Bizdə hərdən havalar isti olduğunnan, hələ qış qurtarmamış ağaclar oyanır, bir də görürsən təzədən şaxta düşdü, cavan ağacları, onların budaqlarını şaxta vurmasın deyə baxçalarda, kəfşəndə ocax qalayırlar, tüstü nə qədər sıx, qalın olsa, istisi o qədər çox olur. Bunu qışda Mığrı rayonunun kəfşənində də görmüşəm. De görüm, evinin polunu vurdurmusan?

– Yox hala...

– Lap yaxşı, - deyib, Balaca əlini zəmidəki təkərlərə tuşlayaraq onlardan birini aparıb evlərinin ortasına qoymağı, ot-ələf, qamqalaq, yaxud odun tilişəsi, çır-çırpı, taxta yonqarını təkərin ortasına yığmağı, bunlar da olmasa, bir stəkan neftdən, benzindən töküb odlamağı məsləhət bildi. Sonra da qapı-pəncərəni bərk-bərk bağlamağı tapşırdı. Tələsik qalxaraq sükanın arxasında oturub maşını işə saldı, başını eşiyə çıxarıb iki il qabaq elə payızın bu vaxtları yenicə evlənmiş oğluna evlərinin yanında tikdiyi ikiotaqlı evin də qurumaq bilmədiyini dedi. Ata-baba erməni kirvələri bu xəbəri eşidən günün səhərisi gəlib evin ortasında təkər yandırdığını, iki günnən sonra oğlunu o evə köçürdüyünü söylədi.

Vaço həmin axşam sürünü arxaca qatıb, küçə-bacadan əl-ayaq yığışanacan gözlədi, pəncərələrdə sonuncu işıq sönəndən sonra gedib kənddən azca aralıdakı zəmidən təkər gətirdi, qonşularının təndir yerindən götürdüyü bir qucaq çır-çırpını üst-üstə qoyduğu qoşa təkərin ortasına basıb, pəncərələri bağladı. Dan yeri ağaranda tövlələrinə girərək taxçadakı çırağı götürüb silkələməklə səsindən neftin son dərəcə az olduğunu hiss eləsə də, “bəs eliyər” - duşünərək tələsə-tələsə aparıb çırpının üstünə tökdü, sırıxlısının döş cibindən kibriti çıxarıb alışdırdı, qapını qıfıllayıb yeyin-yeyin sürünün arxasınca getdi.

Eşiyə çıxmış qonşu arvadı ləzzətlə gərnəşəndə Vaçonun təzə evinin bacasından (o vaxtlar evlərin üstü hələ kirəmit örtüklü deyildi) tünd göyə çalan burum-burum gur tüstünün qalxdığını gördü. Bir an ona elə gəldi yuxu görür, bir neçə yerindən deşilmiş tupikdən çıxan məcun kimi qapının, pəncərələrin boşluğundan süzülən tüstünü gözü alsa da yenə bir şey anlamadı, özündən asılı olmayaraq yumşaq-yumşaq addımladıqca evdəki tüstünün içində güclə işaran közərtini, hərdən görünüb ani yox olan alovu görəndə elə bil yuxudan ayıldı:

–Vaaarvumaaa!!! Vaaarvumaaa!!! (Yanır! Yanır!) - qışqıra-qışqıra evlərinə sarı götürüldü. Bir anın içində evdəkilər, qonşular, qonşuların qonşuları xəbər tutdu. “Yanğın! Yandı! Suuu!!! Vaçonun eviii!..” səsləri kəndi bürüdü. Cox keçmədi, vedrə-vedrə sular bacadan ələndirildi, şüşələri sındırılmış pəncərələrdən içəri atıldı... Ocaq sönsə də, gecikmiş adamlar gətirdikləri suyu yerə tökmək əvəzinə, canıyananlıq edərək, Vaçonun evinə boşaltdılar...

Vaço sürüylə kəndə girəndə qaranlıq düşmüşdü. Qapını açıb qonşularıyla təzə evinə girib işığı yandıranda torpaq döşəmənin palçığa döndüyünü, divarların, tavanın, qapı-pəncərənin qapqara qaraldığını gördülər. Qonşulardan biri:

– Bilsəydik ev bomboşdu, bu qədər su tökməzdik. Sevinmək lazımdı, Vaço, yaxşı ki, badaloq alışmayıb, - dedi...

* * *

Birdən oxucu elə bilər Balacanın ermənilərə kin-küdurəti, ədavəti, düşmənçiliyi-zadı vardı, əsla yox; sadəcə, kim məzələnmək, dolanılmaq, zarafat məqamına gəlirdisə, Balaca həmin an fürsəti əldən vermirdi. Vaçonun evinin qapqara qaralması istər-istəməz Balacanın öz kəndçisi Çoban Məmişin əhvalatını yada salır. Məmiş torbada bir kiloyacan tüstülü barıtı qıçlarının (Balaca, “paçasının” deyirdi) arasına qoyub patrona dolduranda qığılcımdan barıt partlayır, arvadının çölə çıxıb qıyya təpməsinə el tökülüb gəlir. Məmişgilin evlərinin divarları, tavanı, döşəməsi, yorğan-döşəyi, bir sözlə, gözə dəyən nə varsa, hər şey hisdən, pasdan kömür kimi qaralıbmış. Kirpikləri, qaşları, saçları qarsıyıb ütülmüş Məmişin, onun arvadının, uşaqlarının qapqara sifətini, ağaran gözlərini görəndə Balaca dodağının altında:

– Məmiş bu zənci qohumları barədə gör indiyəcən birimizə bir kəlmə bildiribmi... - deyəndə həyəcanlı sifətlərdəki kədər, gərginlik bir an silinir, dodağı qaçan, pıqqıldaşıb gülənlər olur. Çobanın arvadı yumruğuyla sinəsini döyərək təkrar-təkrar:

– Ay camahat, Məmişin sağ yeri qalmıyıb eeey... - deyib kirimək bilmir. Qıçları, əlləri yanıb pöşdənəyi çıxmış Məmişin əl-ayağı əsir, bədəni titrəyir. Məmişin qıçlarını Balaca ehmalca aralayıb lap yuxarılarına baxdığını görən çoban arvadı ağı deyirmiş təkin:

– Balaca qardaş, Məmişin yammamış yeri qalmayıb eeeyy...

Qadının səsini kəsmədiyini görəndə Balaca ona təsəlli, ürək-dirək verirmiş kimi:

– Ay qız, qorxub-eləmə, nə qalıbsa, sənin yeddi arxa dönəninə də bəsdi... - deyir.

* * *

Balacanın maşını yarılğanın başından çıxarılsa da, hələ də təmir olunmamışdı. Yazın ortalarıydı; Balaca, ata yurdu olub indi xarabalığa çevrilmiş Əmrəkar kəndinin başından quru ardıc, kəkeyin ağaclarından, qaratikan kollarından qırıb doğradığı odunu qonşularından aldığı boz eşşəyə yükləyib qabağına qataraq o vaxtlar dəbdə olan “Ay qız, nazlana-nazlana” mahnısını oxuya-oxuya Sarı Gədik yoxuşunun “Çaxmax daşı” adlanan yerinə çatanda arxadan siqnal səsi eşidib ulağın başını tələsik yolun qırağına döndərdi. “Villis” maşını onun arxasında dayandı. Balaca yana çevriləndə sürücünün yanında əyləşmiş raykomun ikinci katibini, arxada isə mədəniyyət şöbəsinin müdirini gözü aldı. İkinci katib:

– Balaca, benzinimiz qurtardı, bizə bir neçə litr benzin ver, - gülə-gülə deyəndə Balaca kepkasının qabağını azca qaldırıb endirdi. Eşşəyin arxasına keçib quyruğunu qaldıraraq:

– Baxın, inger (yoldaş) Parsadanyan, spidometr bizdə də nolun üstündədi, - deyib eşşəyin quyruğunu buraxdı. Maşındakıların üçü də birdən qəhqəhəylə güldü.

Hələ də gülməyini saxlaya bilmədiyindən, gözləri qıyılmış katib:

– Ay köpəng oğlu, bəs bizim çobanın evini niya xarab elamısan?

– Söyüş söymək sizə yaraşmır...

– Ara, zarapat ediram, eli...

– Mən sizi tanıdığıma görə susuram... Yol boyu türklərdi, adətkar olub başqasını söyərsiz, daşı götürüb təpənə vurar. Axı, ermənilər bizə dəli musurman deyir... - Hələ də gülən katib:

– Ara man Vaçonu deyiram...

Balaca bir an susdu, yenə barmağıyla burnuna, alnına sığal çəkib, sakit baxışlarını katibə tuşlayaraq:

– Elə hamınız günahı məndə görürsünüz, bir adam tapılmır desin ay acgöz, tamahkar erməni, axı Balaca sənə bir təkər apar yandır demişdi, sən niyə ikisini aparmısan...

“Villis”dəkilər yenə qəhqəhə çəkib güldü, katib sürücüyə:

– Ara, kşi qnanq, sran xoski çihasçnes (Ədə, sür gedək, buna söz çatdırmaq olmaz)...

* * *

Hansı ilin sonundasa raykomun birinci katibinin, rayonun məsul işçilərinin, kolxoz sədrləri və hesabdarların iştirak etdiyi rəsmi yığıncaqda Balaca lap arxa sırada stulların birində əyləşərək yığıncağın gedişatını diqqətlə izləyirdi. Çıxışçı Lök kəndinin illik plan üzrə verdiyi məhsulların hesabatını oxuyanda bəlli oldu ki, kolxoz noyabr ayında plan üzrə yüz yumurta yerinə doxsan doqquzunu verdiyinə, yəni bir faiz yerinə yetirə bilmədiyinə görə birinci yerə çıxa bilmir... deyib, başını qaldırıb salonu bir an gözdən keçirərək sözünə davam elədi:

– Əyər yumurta bircə faiz artıq olsaydı, kolxozlararası birinciliyi qazanar, keçici bayrağı alardı...

Dünən Balaca dədə-baba kirvələri, rayonun baş mühasibigildə olanda söhbətarası bir faiz yumurta məsələsini eşitdiyinə görə bu yığıncağa gəlmişdi. O, yerindən qalxıb Rəyasət heyətinə sarı irəlilədi, ancaq rəsmi toplantının abhavasının zəhmi onu basdığından, salonun ortasınacan gedə bildi, üzünü birinci katibə tutub həyəcanlı olsa da, sakitcə dedi:

– İnger kartuğar (yoldaş katib), bağışlayın, bir söz demək olarmı?..

Rayonun birinci katibi: – Sən kimsən? - soruşanda, Balaca bəlkə də adamların diqqətini çəkmək məqsədiylə ermənilərin də işlətdiyi “şofer” sözünü erməni ədəbi dilində olduğu kimi:

– Yes Vartanizor kalxozi vorordiyem (Mən Vartanizor kolxozunun sürücüsüyəm), - söylədi. Bir an söhbəti hardan başlaması barədə düşündü. Alnını, sonra burnunu şəhadət barmağıyla sığalladı.

Salona çökmüş səssizlikdə birinci katibin:

– Lsumem (eşidirəm), - deməsi daha əzəmətli səsləndi.

O, həyəcandanmı, deyəcəyi sözləri unutduğundanmı, bir an susdu, şəhadət barmağının arxasıyla burnunun sağını, solunu sığallayıb sözünə davam elədi:

– Siz rayon üçün, kolxozlar üçün çox işlər görmüsüz. Sizin mədəniyyətinizdən, insanlığınızdan hamı danışır...

Katib onun sözünü kəsib yumşaq tonla:

– Ay mart, jamananq çunenq, xosqit asa, inçes uzum (ay kişi, vaxtımız yoxdu, sözünü de, nə istəyirsən)? – söylədi. Balaca onun azacıq da olsa yumşaldığını hiss edərək özündən asılı olmadan bir addım irəlilədi:

– Kolxozun yumurtasını mən gətirib təhvil vermişəm. Həmin gün xəstəydim, tez-tez kal oysürürdüm. Səbətin içinnən bir yumurta götürüb içdim. Mənim günahımnan kolxoz planı doldurmayıb, - deyərək, qabaqca sağ əlini pencəyinin sağ cibinə, sonra tələsmədən sol əlini pencəyinin sol cibinə salaraq iki yumurta çıxarıb azca qabağa uzadaraq:

– Xahiş edirəm, gec də olsa, qəbul eləsinlər, yüz bir faiz...

Zalda qopan gülüşdən sonra onun dedikləri eşidilmədi.

Bu əhvalat ağızdan-ağıza bütün rayona, kəndlərə yayıldı...

***(Ardı var)***